

"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

## Milli dövlətçilik ideyalarına sədaqət



3


# SƏS

№ 202 (6885)

3 noyabr 2023-cü il.
Qiymәti 60 qәpik


# Prezident İlham Əliyev Qazaxıstanda səfərdədir




Prezident İlham Əliyev Türk Dövlətləri Təşkilatının "Türk Əsri" çağırışı altında keçiriləcək 10-cu yubiley Zirvə görüşündə iştirak etmək üçün Qazaxıstan Respublikasına səfərə gəlib.

Astana şəhərinin Nursultan Nazarbayev Beynəlxalq Aeroportunda Prezident İlham Əliyevi Qazaxıstanın Baş naziri Alixan Smailov və digər rəsmi şəxslər qarşılayıblar.

# İkili yanaşma və reallığı əks etdirən GÜZGÜ




7

## Çips yedin ya zəhər, fərqi yoxdur



15

## Xərçəngə qalib gələn PEYVƏND?



15

## Aliment pullarının artması boşanmaları çoxaldacaq?



9

## Almaniya Fransadan qisas alır



5

## Dönər "biznesi": murdar ətlər bizi necə məhv edir?



6

# Türkdilli liderlər bir arada




***Müasir dünyada türkdilli dövlətlər arasında qurulan əməkdaşlıq daha aydın görünür. Bu münasibətlərin güclənmiş və yeni, daha düşünülmüş, praqmatik mərhələsinə start verilib. Türkdilli ölkələrin siyasi fəallığı dünya siyasətinin gündəliyinin müəyyən edilməsinə getdikcə daha çox təsir göstərməsi əlbəttə ki, türkdilli ölkələr arasında hərtərəfli əməkdaşlığın genişləndirilməsi mühüm rol oynayır. Türkdilli dövlətlər arasında səmərəli, etibarlı siyasi dialoq qurulub, bütün sahələrdə hərtərəfli əməkdaşlığın daha da inkişaf etdirilməsi istiqamətində tədbirlər həyata keçirilir. "Bu gün dünya miqyasında Türk Dövlətləri Təşkilatı öz layiqli yerini tuta bilibdir. Ancaq bundan sonra da fəal çalışmalıyıq ki, bizim təsir imkanlarımız daha da geniş olsun.***

Burada, əlbəttə ki, həm qarşılıqlı yardım, eyni zamanda, iqtisadi əlaqələrin gücləndirilməsi, siyasi müstəvidə daimi koordinasiya və məsləhətləşmələrin aparılması, təhlükəsizlik sahəsində qarşılıqlı yardım, yeni, bütün bunlar önəmli amillərdir və bizim birliyimizi daha da gücləndirəcək. Əminəm ki, yaxın gələcəkdə bizim təşkilatımızın dünyadakı mövqeyi və rolu daha da artacaqdır", - deyə Prezident İlham Əliyev çıxışlarının birində bildirmişdir.

Türk dünyasının birliyi ideyası, türk milli dövlətlərinin vahid siyasi və mədəni mövqedən çıxış etmək strategiyası bu gün Azərbaycanda, Türkiyədə və digər qardaş türk respublikalarında həm siyasi hakimiyyət, həm də ictimai-humanitar səviyyələrdə aktuallaşmaqdadır. Böyük və müstəqil dövlətçilik təcrübəsi olan, ən çətin dövrlərdə belə birlik ideologiyasını qoruyub inkişaf etdirmiş Azərbaycan və Türkiyə respublikalarında birlik ideyası və konsepsiyası daha möhkəm təməllərə və özünügerçəkləşdirmə gücünə malikdir. Bu siyasət Azərbaycanda və Türkiyədə müasir dünya reallıqlarına uyğun olaraq aparılır.Bildiyimiz kimi, noyabrın 3-də Astanada Türk Dövlətləri Təşkilatının dövlət başçılarının X yubiley sammiti keçiriləcək.

## QÜDRƏTİ, GÜCÜ VƏ ZƏNGİN DÖVLƏTÇİLİK ƏNƏNƏLƏRİ

Türkdilli ölkələrin vahid platformada birləşməsi bu ölkələr arasında siyasi, iqtisadi, mədəni və digər sahələrdə əməkdaşlığın yüksələn xətlə inkişafına təkandır. Xatırladaq ki, 2009-cu ilin oktyabrında türkdilli ölkələrin dövlət başçılarının Naxçıvanda keçirilən toplantısında Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının (TDƏŞ) yaradılması barədə qərarın qəbul edilməsi əməkdaşlığın yüksəlməsində mühüm rol oynadı və dünyada türk birliyinin daha da güclənməsinə şərait yaratmış oldu. Naxçıvan sazişinin imzalanmasından keçən müddət ərzində reallaşan layihələr, imzalanan sazişlər və s. türk dövlətləri arasında münasibətləri daha da yaxınlaşdırmış oldu. Naxçıvan sazişinin imzalanmasından keçən dövr ərizində görülən işlər, qarşılıqlı səfərlər türk dövlətləri arasında inteqrasiyanı dərinləşdirmək üçün səmərəli platformaya çevrilib. Tarixin bütün dönəmlərində türklər özlərinin qüdrəti, gücü, zəngin dövlətçilik ənənələri ilə seçilmiş, dünyanın ən üstün dəyərlərə malik sivilizasiyalarından birinin sahibi olmuşlar.

Azərbaycan Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasına Sədrlik dövründə türk dünyasının birləşməsinə böyük töhfələrini verdi. Azərbaycan Respublikasının Prezidenti, Türk Şurasının Sədri İlham Əliyevin təşəbbüsü ilə Türk Şurasının videokonfrans vasitəsilə fövqəladə Zirvə görüşünün keçirilməsi və bu görüşün koronavirus pandemiyası ilə mübarizə mövzusuna həsr olunması dövlət başçıları səviyyəsində pandemiya ilə bağlı Zirvə görüşünü keçirən ilk beynəlxalq tədbir kimi tarixə düşdü.

Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının VIII Zirvə Görüşünü xüsusilə qeyd etməliyik. Qəbul olunan tarixi qərarlarla yadda qaldı. Zirvə görüşündə Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının adının "Türk Dövlətləri Təşkilatı"na dəyişdirilməsi haqqında Qərar, Türkmənistana Türk Dövlətləri Təşkilatında müşahidəçi statusunun verilməsi haqqında Qərar, Azərbaycan Respublikası Prezidentinin "Türk Dünyasının Ali Ordeni" ilə təltif edilməsi haqqında Qərar, Türk Şurası VIII Zirvə Görüşünün Bəyannaməsi, "Türk dünyasına baxış – 2040" sənədinin qəbulu ilə bağlı Qərar, "Türk dünyasının birliyinə verdiyi töhfələrə görə" Türk Dövlətləri Təşkilatının Əlişir Nəvai adına Beynəlxalq Mükafatı haqqında Qərar, Türk Dövlətləri Təşkilatında müşahidəçi status haqqında qaydalara dair Qərar və digər qərarların imzalanması tarixi hadisə olaraq əhəmiyyət daşıyır. Cənab Prezident Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının VIII Zirvə Görüşünün tarixi əhəmiyyətinə toxunaraq bildirmişdir ki, biz Şuramızı təşkilata çeviririk və bu təşkilatın çox gözəl gələcəyi var: "Çünki bu təşkilatın təməlində təbii müttəfiqlər yerləşir və həm tarix, həm mədəniyyət, həm bizim ənənələrimiz, bizim adət-ənənələrimiz, bax, bu, birliyi diktə edir. Eyni zamanda, indiki dünyada təhlükələr hər ay, hər il yaranır və əfsuslar olsun ki, dünyanın aparıcı ölkələri bu təhlükələrə qarşı düzgün addımlar ata bilmirlər və əminəm ki, Türk Dövlətləri Təşkilatının təkcə ölkələrimiz, xalqlarımız üçün deyil, dünya üçün önəmi bundan sonra da artacaq. Çünki bizim işbirliyimiz səmimidir, biz hamımız qardaşıq, bir-birimizə qardaş deyirik, biz hamımız ənənəvi dəyərlər üzərində ölkələrimizi inkişaf etdiririk".

## "TÜRK DÜNYASI BÖYÜK BIR AİLƏDİR"

Azərbaycan Prezidentinin qeyd etdiyi kimi, "Türk dünyası böyük bir ailədir və şadam ki, son illər ərzində bütün üzv və müşahidəçi ölkələr tərəfindən təşkilata böyük dəstək göstərilir. Təbii ki, növbəti illərdə də bu dəstək göstərilməlidir". Vurğulamaq yerinə düşər ki, Azərbaycanın iqtisadi inkişafı regionda həyata keçirilən transmilli layihələrin uğurla reallaşmasına gətirib çıxarıb. İstismara verilən Bakı-Tbilisi-Ceyhan və Bakı-Tbilisi-Ərzurum neft və qaz kəmərləri Xəzər neftini və qazını dünya bazarlarına çıxarır. Orta Asiyanın karbohidrogen ehtiyatları Xəzər dənizi və Azərbaycan vasitəsi ilə dünya bazarlarına nəql edilir. Aktau və Bakı dəniz limanları arasında gəmi daşınmalarının inkişafını da vurğulamalıyıq. 2013-cü ildə Bakı, Aktau və Samsun beynəlxalq dəniz limanları arasında Türk qardaş limanları haqqında Anlaşma Memorandumu imzalanmışdır. Aktau və Bakı dəniz limanları arasında gəmi daşınmaları inkişaf etməkdədir. Bakı – Aktau bərə yolu ilə neftlə yanaşı dəmir yol vaqonları, avtomobil, taxıl və s. Yüklərin daşınmaları da yerinə yetirilir. Aktau portundan Qazaxıstanın şimalını birləşdirən 400 km-lik dəmir yolu kənd təsərrüfatı məhsulları və s. daşınmasını xeyli səmərəli edir. Bütün bu layihələr qədim İpək Yolunun bərpası və türk əməkdaşlığı çərçivəsində ticarət və sərmayə əməkdaşlığının gələcək inkişafı məqsədi ilə həyata keçirilib. Türkdilli dövlətlərarası irimiqyaslı infrastruktur layihələri də reallaşdırılıb və bu davamlıdır. Hazırda bir sıra böyükmiqyaslı layihələr həyata keçirilməkdədir.2020-ci il türk dünyası məhsuldar, Zəfər ili olaraq yadda qaldı. Belə ki, türk dünyasının önəmli uğurları, ən başlıcası Azərbaycan ərazilərinin işğaldan azad olunması, Azərbaycanın suverenliyinin və ərazi bütövlüyünün bərpa edilməsi əhəmiyyətli hadisədir. Azərbaycan tərəfi məsələnin sülh yolu, danışıqlar masasında həll edilməsi istiqamətində addımlar atmış olsa da, Ermənistan faktiki olaraq danışıqlardan imtina etdi və ölkəmiz döyüş meydanında öz sözünü deyərək Zəfər qazandı.

Hamının bildiyi kimi, Türkiyənin Cümhurbaşqanı Rəcəb Tayyib Ərdoğan 2020-ci ilin sentyabrın 27-də müharibə başlanan gün açıq şəkildə Azərbaycana dəstək ifadə edərək, Türkiyənin Azərbaycanın yanında olmasını ifadə etdi. Türk Şurası sentyabrın 28-də Azərbaycana dəstək xarakterli açıqlama verdi. Eləcə də digər beynəlxalq təşkilatlar - Qoşulmama Hərəkatı, İslam Əməkdaşlıq Təşkilatı Azərbaycana siyasi dəstək göstərdilər.

## "TÜRK DÜNYASININ MƏRKƏZİNDƏ DAYANAN GÜCLÜ TÜRKİYƏ DÖVLƏTİDİR"

Bu gün dünya miqyasında Türkiyə siyasi, iqtisadi, hərbi gücü ilə tanınır. "Türkiyənin inkişafı, Türkiyədə sabitliyin təmin olunması bütün türk dünyası üçün önəmli şərtdir", - deyən Cənab Prezident bildirib ki, türk dünyasının mərkəzində dayanan güclü Türkiyə dövlətidir: "Bizə, hər birimizə əlavə güc verən Türkiyənin güclənməsidir və buna görə hər birimiz əziz Qardaşıma minnətdar olmalıyıq".

Təşkilat hər zaman Ermənistan və Azərbaycan arasında mövcud olmuş münaqişə ilə bağlı Azərbaycanın haqlı mövqeyini dəstəkləmiş və 2020-ci ilin iyul ayında baş vermiş Tovuz hadisələri və 27 sentyabr tarixindən başlayaraq, Ermənistan tərəfindən həyata keçirilən təxribatlarla bağlı mütəmadi olaraq bəyanatlar vermişdir. Ən çətin anlarda türk dünyası Azərbaycanın yanındadır. Türk Dövlətləri Parlament Assambleyasının Katibliyi Ermənistan silahlı qüvvələrinin Azərbaycan-Ermənistan dövlət sərhədinin Daşkəsən, Kəlbəcər və Laçın istiqamətlərində insan tələfatı və yaralanması ilə nəticələnən hərbi təxribatı qətiyyətlə qınayıb. TÜRKPA beynəlxalq hüququn norma və prinsiplərinə sadiqliyini və qardaş Azərbaycanın ərazi bütövlüyünə və beynəlxalq səviyyədə tanınmış sərhədlərinin toxunulmazlığına güclü dəstəyini bir daha təsdiq edərək, Cənubi Qafqazda davamlı sülh və sabitlik naminə Azərbaycan və Ermənistan arasında münasibətlərin normallaşdırılması üçün səylərin əhəmiyyətini vurğulayır. Əlbəttə ki, bütün bunlar türk dünyasını vahid bir məslək ətrafında birləşdiyinin təcəssümüdür.

Şərqi Zəngəzur və Qarabağ bölgələrinin bərpası üçün Azərbaycana ən çox dəstək verən də qardaş ölkə Türkiyədir. Türkiyənin bir çox şirkətləri infrastruktur layihələrində iştirak edirlər. Vurğulamaq yerinə düşər ki, Füzuli Beynəlxalq Hava Limanının inşasında Azərbaycan şirkətləri ilə yanaşı, 12 türk şirkəti də iştirak edib. "Zəngəzur koridoru isə həm türk dünyasını, həm Avropanı, həm qonşularımızı birləşdirə biləcək bir layihədir", - deyən Cənab Prezident bildirib ki, 1920-ci ildə sovetlər hakimiyyəti Zəngəzuru Azərbaycandan qoparıb Ermənistana verməklə türk dünyasının coğrafi bağlantısını pozmuşdur və bunu xəritəyə baxmaqla hər kəs görə bilər. Bu gün isə biz bu coğrafiyanı bərpa edirik. Artıq nəqliyyat, kommunikasiya layihələrinin həyata keçirilməsi ilə biz bu coğrafiyanı yenidən bağlayırıq, birləşdiririk və ümid edirəm ki, buna sona qədər müvəffəq olacağıq. Türk dövlətləri ölkələr arasında yaxınlaşmanın, inteqrasiyanın inkişaf etməsində ciddi rol oynayıb və bundan sonra töhfələrini verəcəkdir.

***Zümrüd BAYRAMOVA***

# Milli dövlətçilik ideyalarına sədaqət



***Azərbaycanın tərəqqisi və xalqımızın rifahı naminə Ümummilli Lider Heydər Əliyevin zəngin irsindən bəhrələnərək və Onun azərbaycançılıq məfkurəsini təbliğ edən Heydər Əliyev Fondu milli dövlətçilik ideyalarının yeni nəsillərə daim aşılanması, dövlətin mədəni tərəqqisi, sivil dünya birliyinə inteqrasiyası prosesi kimi ali dəyərlərə xüsusi olaraq diqqət yetirərək bu istiqamətdə böyük layihələr həyata keçirir. Azərbaycanın məxsusi dəyərlərini, həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması istiqamətində Azərbaycanın ərazisində və xaricdə aktual mövzulara dair konfrans və seminarların təşkilində, qloballaşan dünyaya inteqrasiya prosesində milli-mənəvi dəyərlərin qorunub saxlanılmasına önəm yetirir.***

Ümummilli Lider Heydər Əliyevin xatirəsini əbədiləşdirmək, Onun bütün nəsillərə örnək olan irsini təbliğ etmək məqsədi ilə fəaliyyətə başlayan Heydər Əliyev Fondu Azərbaycanın sosial inkişafına xidmət edən genişmiqyaslı proqram və layihələrin icraçısına çevrilib. Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun Prezidenti Mehriban Əliyevanın təşəbbüsü və məqsədyönlü fəaliyyəti nəticəsində Fond fəaliyyəti dövründə müxtəlif sahələri əhatə edən çoxsaylı layihələr reallaşdırmış, nüfuzlu beynəlxalq təşkilatlarla əməkdaşlıq əlaqələri qurmuşdur. Azərbaycan cəmiyyətində gənc nəslin biliklərə yiyələnməsini və ölkəmizin dünya təhsil sisteminə inteqrasiyasını prioritet məsələlərdən hesab edən təhsilin inkişafına yönəlmiş genişmiqyaslı proqram və layihələri - "Uşaq evləri və internat məktəblərinin inkişafı", "Yeniləşən Azərbaycana yeni məktəb" proqramları, "Təhsilə dəstək" layihəsi qısa bir zaman məsafəsində böyük uğurlara səbəb oldu. Heydər Əliyev Fondunun xüsusi diqqət yetirdiyi prioritet sahələrdən olan ölkəmizdə tolerantlıq ənənələrinin qorunmasıdır.

Mehriban Əliyeva azərbaycançılıq ideyalarının çarçısı olaraq Azərbaycandan kənarda da amalını gerçəkləşdirmək yönümündə irimiqyaslı layihələri ilə çıxış edir. Onun böyük təşəbbüsü ilə müasir dövrümüzdə fondun ABŞ, Rusiya Federasiyası, Rumıniya və Türkiyədə nümayəndəlikləri fəaliyyət göstərir. Sözsüz ki, belə bir dövlətlərdə nümayəndəliklərin yaranması Azərbaycan həqiqətlərinin dünyaya çatdırılmasında əhəmiyyətlidir.

Yaşadığımız qloballaşma dövründə, Azərbaycanın dünyaya inteqrasiya etdiyi bir zamanda milli-mənəvi dəyərlərinin üzə çıxarılması, Azərbaycanın bir dövlət olaraq məxsusisiliyinin dünyəviləşməsi istiqamətində Mehriban Əliyevanın gördüyü işlər kifayət qədərdir. Fondun fəaliyyət göstərdiyi sahələrdən biri də elm və texnologiyadır. Azərbaycan həqiqətlərinin internet şəbəkəsi vasitəsilə dünyaya yayılması və xalqımızın min illər boyu yaratdığı maddi-mənəvi dəyərlərin dünyaya tanıdılması məqsədi ilə Fond tərəfindən materialların həcminə, zənginliyinə və əhatəliliyinə, habelə istifadə olunmuş internet texnologiyalarına görə ölkəmizdə analoqu olmayan "Azərbaycan" internet portalı yaradıldı. Azərbaycan, ingilis və rus dillərində tərtib olunan "Azərbaycan" portalı ölkəmizin beynəlxalq aləmdə təbliği işinə, dünyada Azərbaycan haqqında tam, həqiqi və dolğun təsəvvür yaradılmasına böyük kömək göstərir. Eyni zamanda Heydər Əliyev Fondu tərəfindən müxtəlif saytlar və multimedia diskləri hazırlandı. 2005-ci ildən başlayaraq Azərbaycan, ingilis və rus dillərində Ulu Öndər Heydər Əliyevin və akademik Zərifə Əliyevanın həyat və fəaliyyətlərinə həsr olunmuş saytlar, multimedia diskləri, həmçinin Fondun fəaliyyətini əks etdirən sayt yaradılaraq ictimaiyyətin istifadəsinə verildi.

Heydər Əliyev ideyalarını daşıyıcısı olmaq vəzifəsini üzərinə götürən Mehriban Əliyeva Dahi Şəxsiyyət, Ümummilli Lider Heydər Əliyevin həyat və fəaliyyətindən bəhs edən kitablar nəşr etdirməyi də diqqətdən kənarda saxlamayaraq "Görkəmli şəxsiyyətlərin həyatı" silsiləsindən Azərbaycan, rus, ingilis və fars dillərində "Heydər Əliyev" kitabı çap olundu. Daha sonra Ulu Öndərin kəlamları toplanmış ikicildlik "Heydər Əliyev. Müdrik fikirlər" kitabı işıq üzü gördü. Azərbaycan haqqında həqiqətləri beynəlxalq ictimaiyyətə çatdırmağa önəm verən Heydər Əliyev Fondu tərəfindən həyata keçirilmiş layihələr sırasında "Qarabağ həqiqətləri" bukletlər toplusunun nəşri xüsusi əhəmiyyətə malikdir. Qarabağın tarixi, Ermənistan-Azərbaycan münaqişəsinin başlanması, onun nəticəsində ölkəmizə dəyən ziyan, Xocalı faciəsi, ermənilərin dünyanın müxtəlif ölkələrində törətdiyi terror aktları haqqında faktları əks etdirən və ingilis, fransız, alman, rus, macar dillərində nəşr olunmuş bukletlər indiyədək bir çox xarici ölkələrdə yayılmışdır. "Müharibə və tarixi-mədəniyyət abidələrimiz" kitabında Azərbaycanın işğal olunmuş ərazilərindəki ziyarətgahlar və digər tarixi-mədəniyyət abidələri haqqında ətraflı məlumat verilir.

## AZƏRBAYCANA QARŞI MÜHARİBƏ: MƏDƏNİ İRSİN HƏDƏFƏ ALINMASI

"Qarabağ həqiqətləri" silsiləsinin davamı olaraq 2007-ci ildə Heydər Əliyev Fondu Ermənistanın Azərbaycan mədəniyyətinə, maddi-mənəvi irsimizə qarşı məqsədyönlü şəkildə həyata keçirdiyi vandalizm siyasətindən və onun acı nəticələrindən bəhs edən "Azərbaycana qarşı müharibə: mədəni irsin hədəfə alınması" kitabını ingilis dilində nəşr etdirdi. Kitaba işğal olunmuş rayonlarımızdakı mədəni sərvətlərimizin siyahısı, xəritələr, habelə Ermənistan ərazisində və işğal altındakı bölgələrimizdəki tarixi və mədəniyyət abidələrimizin əvvəlki və indiki vəziyyətini əks etdirən videomateriallar əlavə olunub. Rus alimi, yazıçı-tarixçi, professor Rudolf İvanovun "Bəyazidin müdafiəsi: həqiqət və yalan", "Əlahəzrətin general - adyutantı. Hüseyn xan Naxçıvanski haqqında dastan", "Sovet İttifaqı adından" kitabları rus dilində nəşr olunub.

Heydər Əliyev Fondu nəşrləri sırasında fransız dilində çap edilən "Azərbaycan" kitabı xalqımızın qədim tarixini, ənənələrini, mədəniyyətini, etnoqrafik xüsusiyyətlərini əks etdirməklə yanaşı, ölkəmizin keçmişini və bu gününü, müasir simasını da təcəssüm etdirir. Bu kitab oxucuda ölkəmiz haqqında əyani təsəvvür yaratmaq, onu tanımaq və sevmək baxımından çox böyük əhəmiyyətə malikdir. Kitabda paytaxt Bakı ilə bərabər, bütün bölgələr barədə şəkillər və materiallar əksini tapmışdır. Ölkəmizin qədim tarixinin, memarlığının, mədəniyyətinin bütün tərəfləri ilə əks olunduğu "Azərbaycan" nəşri ilə tanışlıq respublikamız və paytaxt Bakı haqqında dolğun təəssürat yaratmaqla, onun mədəniyyətlər və sivilizasiyaların qovuşuğunda yerləşməsindən xəbər verir. Qədim tarixi olan Azərbaycan zəngin mədəniyyətə və incəsənətə malikdir, müxtəlif sivilizasiyaların kəsişməsində yerləşir. Azərbaycan öz mədəniyyətində müxtəlif sivilizasiyalara məxsus aspektləri əks etdirir. Buraya Yaxın Şərq, rus, yəhudi və digər xalqların mədəniyyət aspektləri daxildir. Azərbaycan xalqının zəngin tarixi, mədəniyyəti və mətbəxi onun yaxın qonşuluq siyasətində mühüm rola malik olmasını sübut edir.

Fondun prezidenti Mehriban Əliyevanın fəaliyyətində bu strateji istiqamətlərdə möhtəşəm layihələr davam edir. Göründüyü kimi, Mehriban xanım Əliyevanın Azərbaycan həqiqətlərinin təbliği sahəsində gördüyü işlər əvəzsizdir. Qərb və Şərq sivilizasiyalarının kəsişməsində yerləşən qədim ölkə olan Azərbaycanın mədəniyyətinə, milli dəyərlərinə bu şəkildə yanaşma yetişən nəsildə mövcud dəyərlərə məhəbbət yaradır. Qərblə Şərqin qovuşuğunda yerləşən Azərbaycan və onun paytaxtı Bakı bir çox dövrlərdə dünya mədəni irsinə layiqli töhfələr vermişdir. Bu proses indi də davam edir. Heydər Əliyev Fondu Azərbaycanın beynəlxalq arenada tanınmasına, qədim və zəngin mədəniyyətə malik xalqımız haqqında obyektiv ictimai rəyin formalaşmasına öz töhfələrini verir. Qeyd edək ki, Heydər Əliyev Fondunun dəstəyi ilə www.shusha.today portalı hazırlanıb.

Portalda Şuşa şəhərinin yarandığı gündən işğal olunduğu dövrə qədərki tarixi, ermənilərin Şuşa şəhərini işğal etməsi, 44 günlük müharibə, Şuşanın işğaldan azad edilməsi barədə, burada anadan olan və yaşayan tarixi şəxsiyyətlərlə bağlı məlumatlar yer alıb.

## "TOLERANTLIĞIN ÜNVANI – AZƏRBAYCAN"

"Tolerantlığın ünvanı - Azərbaycan" layihəsi çərçivəsində dini abidələrdə bərpa işləri aparılıb. Erməni vandallığı nəticəsində dağıdılan dini-tarixi abidələrimizin yenidən qurulması və bərpasına Heydər Əliyev Fondu töhfələrini verir. Milli-mənəvi dəyərlərin qorunması və dini ziyarətgahların yenidən qurulması prosesinə fəal surətdə qoşulan Heydər Əliyev Fondunun ölkəmizdə həyata keçirdiyi "Tolerantlığın ünvanı – Azərbaycan" layihəsi çərçivəsində ölkədə bir neçə dini ocağın təmiri və yenidən qurulması həyata keçirilmişdir.

Ardı Səh. 4

TƏHLİL

# Milli dövlətçilik ideyalarına sədaqət

Əvvəli-Səh-3

Fondun təşəbbüsü ilə Gəncədə Comərd Qəssab və Cavad xan türbələri yüksək səviyyədə bərpa edilmişdir. Bu sırada paytaxtın Buzovna qəsəbəsində "Tolerantlığın ünvanı – Azərbaycan" layihəsi çərçivəsində əsaslı surətdə yenidən qurulan Cümə məscidi də xüsusi əhəmiyyət kəsb edir. Azərbaycan ərazisində, bütövlükdə Cənubi Qafqazda və Yaxın Şərqdə ən qədim müsəlman məbədlərindən olan Şamaxı Cümə məscidində əsaslı təmir və yenidənqurma işləri aparılmış, Qəbələdə isə yeni məscid inşa olunmuşdur.

Azərbaycanda bütün dövrlərdə, ictimai-siyasi quruluşdan asılı olmayaraq, müxtəlif dillərdə danışan, müxtəlif dinləri təmsil edən insanlar sülh, əmin-amanlıq və qarşılıqlı hörmət şəraitində bir ailə kimi yaşayıblar. Müasir dünyamızda çoxkonfessiyalı və çoxmillətli Azərbaycan bu ənənələrə sadiqdir və bu, ən böyük sərvətlərdən biridir. Təsadüfi deyildir ki, son illər mədəniyyətlərarası və sivilizasiyalararası dialoqa töhfələrini verir. Müasir dövrümüzdə Heydər Əliyev Fondu, nəinki Azərbaycanın, eləcə də, ümumdünya mədəni irsinin qorunmasına böyük əhəmiyyət verir. Fondun layihələrindən olan "Azərbaycan - tolerantlığın ünvanı" layihəsi çərçivəsində Avropada Versal Sarayının memarlıq abidələrinin, kafedral kilsənin vitrajlarının bərpası Azərbaycanda tolerantlığın, dözümlülüyün, dünya mədəniyyətlərinin rəngarəngliyinə hörmətin qədim və möhkəm kökləri olduğunu özündə bir daha ehtiva edir. Azərbaycanın Birinci xanımı Mehriban Əliyeva Roma şəhərinin ətrafında yerləşən 60-a yaxın katakombaların bərpasında əhəmiyyətli işlərə imza atmışdır. Romanın belə nüfuzlu arxeoloji abidəsinin bərpasına töhfəsini verən Heydər Əliyev Fondu tarixi missiyasını həyata keçirmiş oldu. Heydər Əliyev Fondunun Fransanın Orn Departamentinin Santiyi, Fresnay o Sovaj, San-İler la Jerar, Tanvil, Kurjust, Revoyon və Mal yaşayış qəsəbələrində X-XII əsrlərə aid 7 kilsənin bərpasına yardım etməsi də "Azərbaycan - tolerantlığın ünvanı" layihəsi çərçivəsində reallığa çevrilib.

### DAĞIDILAN DİNİ-TARİXİ ABİDƏLƏRİMİZƏ YENİDƏN VERİLƏN HƏYAT

Ermənistanın Azərbaycana hərbi təcavüzü nəticəsində mədəni abidələrimiz dağıdılmış, işğal edilmiş ərazilərdə qeyri-qanuni aparılmış qazıntılar nəticəsində aşkar edilmiş tapıntılar ermənilər tərəfindən mənimsənilmişdir. Ermənilər bütün dövrlərdə Azərbaycana qarşı işğalçılıq siyasətini təkcə ərazi iddiaları ilə məhdudlaşdırmayıb, mədəni irsimizə, milli-mənəvi dəyərlərimizə göz dikmişdir. Erməni vandalizmi nəticəsində, Azərbaycan xalqının çoxəsrlik tarixini əks etdirən 700-dən artıq tarixi və mədəniyyət abidəsi qarət edilib və yandırılıb. Azərbaycanın işğal altında olan ərazilərini xarabalığa çevirən ermənilər vəhşilik missiyalarını həyata keçiriblər. İşğaldan azad olunmuş ərazilərdə məscidlər, mədrəsələr, körpülər, məbədlər nəinki dağıdılmış, eyni zamanda bir çox hallarda xalqımızın milli-mənəvi dəyərləri təhqir edilmişdir. Füzuli rayonunda Hacı Ələkbər məscidi, Gecəgözlü, Yuxarı Veysəlli kənd məscidləri, Cəbrayıl rayonunda Süleymanlı və Papı kənd məscidləri, Qubadlı rayonunda Məmər və Yusifbəyli kənd məscidləri, Zəngilan rayonunda Zəngilan şəhər məscidi, Malatkeşin və Zəngilan kənd məscidləri və s. bu sıradadır. Ağdam şəhərində yerləşən Pənahəli xanın və Mehdiqulu xanın türbələri dağıntılara məruz qalmış, işğalçı Ermənistan tərəfindən abidələrə ciddi ziyan dəymişdi. Erməni silahlı qüvvələri tərəfindən ən çox dağıdılan daşınmaz mədəni irs nümunələri olan məscidlər, türbələr və digər inanc yerləridir ki, bu da erməni vandallığının göstəricisidir.

Qarabağdakı dini abidələrin, məscidlərin bərpası işləri sürətlə davam etdirilir. Heydər Əliyev Fondu qədim Qarabağ torpağında dini abidələrimizin, məscidlərimizin bərpası üzrə layihə həyata keçirir. Layihə çərçivəsində yerli və xarici mütəxəssislərin iştirakı ilə bölgədəki ziyarətgahlarımızın bərpası, konservasiyası və yenidən qurulması həyata keçirilir. İşğal illəri ərzində Şuşa şəhərində və Ağdam rayonunda dağıntılara məruz qalmış dini ibadət yerlərinin bərpası üzrə müvafiq işlərə artıq başlanılmışdır.

Şuşa şəhəri işğal altında olduğu müddətdə digər məscidlər kimi Saatlı məscidi də ermənilər tərəfindən dağıdılmışdı. 2021-ci ilin dekabrından məsciddə Heydər Əliyev Fondu tərəfindən bərpa işlərinə başlanılıb. "PAŞA Holding"in maliyyə dəstəyi ilə həyata keçirilən konservasiya və restavrasiya işləri Azərbaycan, İtaliya və Türkiyə şirkətlərinin konsorsiumu tərəfindən Avstriyanın "Wehdorn Architekten" şirkətinin nəzarəti ilə məscidin ilkin memarlıq üslubuna uyğun olaraq aparılıb. İşğal zamanı məscidə edilən müdaxilələr aradan qaldırılıb və divarların gücləndirilməsi işləri görülüb. Şuşada Yuxarı Gövhər Ağa məscidinin əsaslı yenidənqurma və bərpa işlərindən sonra açılışı, eləcə də Saatlı məscidinin açılışı dini abidələrimizə Heydər Əliyev Fondu tərəfindən ayrılan diqqətdir. Dini ocaqlara olan münasibət Azərbaycanın bugünkü həqiqətlərinin təzahürüdür. Erməni vandallığı nəticəsində dağıdılan dini-tarixi abidələrimiz yenidən qurulur,

**Nəzakət ƏLƏDDİNQIZI**

# Rumıniya qəzeti Azərbaycanın Zəfər Günü ilə əlaqədar məqalə yayıb


1 noiembrie 2023 Ultimele: A treia aniversare a victoriei în

Ultima oră — ziar național independent — Distincția culturală a Academiei Române — fondat 1914 • serie nouă - anul XXV

INTERN EXTERN PUNCTE DE VEDERE ARTĂ, CULTURĂ, EDUCAȚIE STIL DE VIAȚĂ CONTACT

KARABAKH IS AZERBAIJAN! NOVEMBER 8 Victory Day

Editoriale de Colecție

de 25 de ani în media din România Ultima oră 1996 2021

EXTERN

A treia aniversare a victoriei în Războiul Patriotic

1 noiembrie 2023 ultimaora Niciun comentariu

Au trecut aproape trei ani de la începutul Războiului Patriotic de 44 de zile, care a pus capăt celor 30 de ani de ocupație armeană a teritoriilor recunoscute internațional ale Republicii Azerbaidjan și a restabilit integritatea teritorială a statului nostru.

***Rumıniyanın nüfuzlu "Ultima Ora" internet qəzetində Azərbaycanın bu ölkədəki səfiri Hüseyn Nəcəfovun "Vətən müharibəsində Qələbənin üçüncü ildönümü" sərlövhəli geniş məqaləsi dərc edilib. AZƏRTAC xəbər verir ki, məqalədə Azərbaycanın beynəlxalq səviyyədə tanınmış ərazilərinin 30 illik erməni işğalına son qoyan 44 günlük Vətən müharibəsində Prezident, Silahlı Qüvvələrinin Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi ilə Ordumuzun şücaəti nəticəsində Qələbə qazanaraq ərazi bütövlüyünü bərpa etməsi və Cənubi Qafqazda yeni geosiyasi reallıq yaratdığı geniş təsvir olunub.***


INTERN EXTERN PUNCTE DE VEDERE ARTĂ, CULTURĂ, EDUCAȚIE STIL DE VIAȚĂ CONTACT

asemenea se construiesc clădiri rezidențiale, școli, spitale și alte facilități.

Odată cu relocarea primilor locuitori în „satul inteligent" construit în Zanghilan, a început Programul „Marea Întoarcere". Oamenii care au suferit de pe urma agresiunii armene au trăit în condiții dificile – au experimentat stres moral și au fost lipsiți de dreptul lor legal de a se întoarce pe pământurile natale. Până în prezent, 2.300 de foști strămutați intern s-au reîntors pe meleagurile lor, iar până la sfârșitul acestui an numărul acestora va fi de 5.500 de persoane. La sfârșitul primei etape a Programului Marea Întoarcere – la sfârșitul anului 2026, 140 de mii de oameni vor locui în Karabah și Zanghezurul de Est.

De la sfârșitul celui de-al Doilea Război din Karabah și până în prezent, 7 miliarde de dolari au fost cheltuiți din bugetul Azerbaidjanului pentru restaurarea teritoriilor eliberate. Bugetul minim pe care îl planificăm pentru anul viitor și care va fi discutat în curând în parlamentul nostru este de 2,4 miliarde de dolari.

Politica atentă, decisivă a președintelui Ilham Aliyev, puterea economică, armata modernă a Azerbaidjanului, unitatea poporului și a guvernului au devenit principalii factori care au asigurat victoria noastră istorică. S-a pus capăt etapei în care poporul azerbaidjan a trăit o lungă perioadă cu durere în suflet că și-a pierdut pământurile natale și s-a scris o altă pagină eroică glorioasă în istoria poporului nostru, dovedind lumii întregi că suntem un popor victorios, cu un spirit neîntrerupt.

Integritatea teritorială a Republicii Azerbaidjan a fost asigurată, astfel, Azerbaidjanul a implementat de unul singur 4 documente importante adoptate de Consiliul de Securitate al ONU în 1993 în legătură cu această problemă.

Victoria câștigată a fost rezultatul logic al unei politici consistente și principiale de restabilire a integrității teritoriale a Azerbaidjanului, a cărei fundație a fost pusă de liderul național Heydar Aliyev și care a fost continuată cu succes de președintele Ilham Aliyev.

Cuvintele președintelui Ilham Aliyev rostite într-un discurs adresat poporului pe Aleea Martirilor din 8 noiembrie 2020, ziua în care orașul Șușa a fost eliberat de sub ocupație, răsună pe buzele tuturor: "Dragă Șușa, ești liber, dragă Șușa, ne-am întors, dragă Șușa, te vom reînvia!"

Ținând cont de semnificația istorică a acestei zile, prin Ordinul președintelui Republicii Azerbaidjan Ilham Aliyev din 3 decembrie 2020, 8 noiembrie a fost declarată Ziua Victoriei în Republica Azerbaidjan.

**Dr. Huseyn N. Najafov,**

**Ambasador Extraordinar și Plenipotențiar**

**al Republicii Azerbaidjan în România**


INTERN EXTERN PUNCTE DE VEDERE ARTĂ, CULTURĂ, EDUCAȚIE STIL DE VIAȚĂ CONTACT

Raport Starea Națiunii

25 Septembrie 1991 – Ultima Mineriadă

În discursul său în cadrul dezbaterilor generale ale celei de-a 75-a sesiuni a Adunării Generale a ONU din 25 septembrie 2020, președintele Republicii Azerbaidjan, Ilham Aliyev, a remarcat moartea soldaților azerbaidjeni, precum și daune grave aduse infrastructurii civile ca urmare a provocărilor armene. Iar pe 27 septembrie 2020, forțele armate azerbaidjene au lansat o contraofensivă pentru a preveni noi provocări armene.

Încă din primele zile, forțele armate azerbaidjene au învins decisiv forțele armate armene și le-au obligat să se predea. În timpul războiului, numit mai târziu Războiul Patriotic de 44 de zile, Azerbaidjanul a reușit să obțină mari realizări militare, cu pierderi minime. Orașul Djabrayîl a fost eliberat pe 4 octombrie, Fuzuli pe 17 octombrie, Zanghilan pe 20 octombrie. După eliberarea inițială a mai multor sate și poduri strategice, forțele armate azerbadjene au eliberat complet granița dintre Azerbaidjan și Iran pe 23 octombrie. Ulterior, orașul Gubadlî a fost eliberat pe 25 octombrie, iar orașul Șușa pe 8 noiembrie.

Münaqişənin tarixi aspektlərinə diqqət çəkən diplomat bunun Ermənistanın uzun illər Azərbaycana qarşı hərbi təcavüzü kontekstində nəzərdən keçirdiyini və bu təcavüz nəticəsində Azərbaycan ərazisinin 20 faizinin Ermənistan tərəfindən işğal edildiyini, bir milyona yaxın azərbaycanlının etnik təmizləməyə məruz qaldığını, 30 il ərzində işğal etdiyi ərazilərdə xalqımızın mədəni irsinin dağıdılması və talan edilməsi kimi faktları vurğulayıb.

Diplomat bildirib ki, BMT Təhlükəsizlik Şurası tərəfindən Ermənistan-Azərbaycan münaqişəsinin həlli ilə bağlı Ermənistan silahlı qüvvələrinin işğal olunmuş ərazilərdən dərhal, qeyd-şərtsiz və tam çıxarılmasını tələb edən dörd qətnamənin qəbuluna baxmayaraq, rəsmi İrəvan bu qətnamələri yerinə yetirməkdən boyun qaçırıb.

O qeyd edib ki, 2020-ci il sentyabrın 27-də Ermənistanın əl atdığı yeni təcavüz aktına cavab olaraq Azərbaycanın başladığı əks-hücum əməliyyatı beynəlxalq humanitar hüquqa əməl edilməklə həyata keçirilib, müharibə dövründə Azərbaycan tərəfi Ermənistanın növbəti hərbi təcavüzünün qarşısını almaq və mülki əhalinin təhlükəsizliyini təmin etmək üçün beynəlxalq humanitar hüququn normalarına tam şəkildə riayət edib. 44 günlük Vətən müharibəsində Azərbaycan böyük hərbi nailiyyətlər qazandı. İlk günlərdən Azərbaycan Ordusu Ermənistan silahlı qüvvələrini ağır məğlubiyyətə uğratdı və onları təslim olmağa məcbur etdi.

Həmçinin vurğulanıb ki, döyüş meydanında çətin vəziyyətdə qalan Ermənistan silahlı qüvvələri beynəlxalq hüququn norma və prinsiplərini kobud şəkildə pozaraq, dinc əhaliyə qarşı dəhşətli cinayətlər törədib, Gəncə, Mingəçevir, Bərdə, Tərtər şəhərlərinə və digər yaşayış məntəqələrinə kasetli bombalar atıb. Ermənistan silahlı qüvvələri tərəfindən Azərbaycanın mülki əhalisinin qəsdən öldürülməsi ermənilərin xalqımıza qarşı növbəti hərbi cinayətidir. Ermənistandan fərqli olaraq, Azərbaycan ordusu münaqişə boyu heç vaxt dinc əhalini atəşə tutmayıb.

Diplomat yazısında Ermənistanın mina terroruna diqqət çəkib, nəticədə 300-dən çox azərbaycanlının mina qurbanı olduğunu diqqətə çatdırıb. Bildirilib ki, bu ilin sentyabrında Azərbaycanın keçirdiyi lokal xarakterli antiterror tədbirləri ilə terrorçular cəzalandırılıb.

Eyni zamanda, bu il oktyabrın 15-nin ədalətin təntənəsinin rəmzi kimi Azərbaycan xalqının yaddaşına əbədi həkk olunduğu bildirilib, Xankəndi, Xocalı, Ağdərə, Xocavənd və Əsgəranda Dövlət Bayrağı sancıldığı qeyd olunub. Azərbaycan Bayrağının Xankəndində dalğalanması "Heydər Əliyev İli"ndə xalqımıza verilən ən böyük töhfədir.

Sonda səfir qeyd edib ki, qazanılan Qələbə təməli Ümummilli Lider Heydər Əliyev tərəfindən qoyulan və Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilən Azərbaycanın ərazi bütövlüyünün bərpası istiqamətində aparılan ardıcıl və prinsipial siyasətin məntiqi nəticəsidir.

# Almaniya Fransadan qisas alır

## *Paris Orta Asiyada, Berlin isə Afrikada özünə “dost” axtarır*

***Almaniyanın federal kansleri Olaf Şolz və Nigeriya Prezidenti Bola Tinubu, ölkələri arasında enerji sektorunda əməkdaşlığı dərinləşdirmək mövzusunda razılaşıb. Bu, müstəmləkəçi Fransanın Afrikadan qovulması ilə eyni vaxta düşür. Almaniyanın Fransa ilə müttəfiq olduqlarını, NATO, Avropa Birliyi və digər təşkilatlarda birgə olduqlarını düşünsək, Berlinin bu addımı iki ölkə arasındakı problemin daha dərində olduğunu anlaya bilərik.***









RAKURS

Almaniya kansleri Olaf Şolzun Qərbi Afrika ölkələrinə rəsmi səfəri başlayıb, o, federal daxili işlər naziri Nensi Feserin müşayiəti ilə gedib. Onun yolunda ilk ölkə, alman mətbuatının “Afrikanın ən böyük iqtisadiyyatı” adlandırdığı Nigeriya olub. Öz növbəsində, Federal Prezident Frank-Valter Ştaynmayer çərşənbə axşamı Tanzaniyaya uçub. Hər iki sosial-demokrat siyasətçinin vəzifəsi regionla ilk növbədə iqtisadi əlaqələr qurmaqdır.

Maraqlıdır, görəsən, Berlini bu addım atmağa vadar edən, Parisi arxadan xəncərləyən bu niyyətin arxasında nə dayanır. Əlbəttə, Fransanın II Dünya müharibəsində Almaniyaya qarşı etdiyi xəyanət, torpaqlarının ələ keçirilməsi almanların yadından çıxmayıb. Fransa Afrikadan qovulur və bunu fürsət bilən Almaniya onun yerini tutmaq üçün əlini cəld tutub. Çox güman ki, alman liderləri Qərbi və Şərqi Afrika ölkələrini öz aralarında bölüblər. Amma kanslerin və prezidentin yollarının Zambiyada kəsişəcəyini də istisna etmək olmaz.

Ştaynmayerin səfərinin məqsədlərindən birinin müstəmləkə keçmişini aradan qaldırmaq olduğu bildirilir. Söhbət ötən əsrin əvvəllərində Almaniyanın Şərqi Afrikası ərazisində məskunlaşan 20-yə yaxın tayfanın iştirak etdiyi Maji-Maci üsyanının yatırılması zamanı müstəmləkə ordusunun 300 min qurbanının xatirəsindən gedir.

Almaniya kansleri Nigeriyanın ”The Punch” qəzetinə Abuja ilə ”daha çox əməkdaşlıq və investisiya” potensialının olduğunu söyləyib. Söhbət hidrogen istehsalı üçün əlverişli perspektivlərin yaradılması perspektivindən infrastruktura və elektrik enerjisinə investisiyadan gedir. Şolz bu baxımdan Almaniyanın hidrogenin gələcəkdə kritik rol oynaması ilə ”hidrogen bazarını genişləndirmək üçün birgə təşəbbüsləri” nəzərdən keçirdiyini söyləyib.

Almaniya hazırda Nigeriyadan böyük həcmdə xam neft idxal edir, lakin qaz idxal etmir. Almaniyanın iqtisadiyyatını və enerji keçidini dəstəkləmək üçün təbii qaza və gələcəkdə hidrogenə ehtiyacı var. Nigeriyalı qaz istehsalçıları və alman qaz treyderləri arasında aparılan danışıqlarda konkret həcmlər razılaşdırılmalıdır. Alman mətbuatının məlumatına görə, Almaniya Nigeriyadan həm mayeləşdirilmiş təbii qaz (LNG) şəklində tankerlə, həm də boru kəmərləri ilə təbii qaz idxal etməyi düşünür.

Bu, Almaniya kanslerinin Nigeriyaya yeni prezident Bola Tinubunun inauqurasiyasından sonra ilk səfəridir. Onunla danışıqlar zamanı Şolz vurğulayıb ki, Almaniya Nigeriyaya “Afrikada əsas tərəfdaş – siyasi və iqtisadi” kimi baxır. O əlavə edib ki, o, iqtisadi əməkdaşlıq, investisiyalar, qlobal problemlər, miqrasiya və təhlükəsizliyi vurğulayaraq “ölkənin açılmasına və tərəfdaşlıqların gücləndirilməsinə və dərinləşdirilməsinə sadiqdir”.

Kanslerin sözlərinə görə, Nigeriya Almaniyanın Saharadan cənubda Afrikada ikinci ən böyük ticarət tərəfdaşıdır. 2021-ci ildə Almaniyanın Nigeriyaya birbaşa investisiyası isə 150 milyon avro təşkil edib.

Daxili işlər naziri Fezerin də iştirak etdiyi danışıqların ikinci mühüm mövzusu miqrasiya siyasəti olub. Müzakirə nigeriyalı mütəxəssislərin Almaniyaya cəlb edilməsi üçün şərait yaradılması və Almaniya qanunvericiliyinə görə bu və ya digər səbəbdən bu statusa uyğun gəlməyən miqrantların geri qaytarılması ilə bağlı olub. Xüsusilə, kansler Almaniyadan olan repatriantlara dəstək məqsədilə Nigeriyada miqrasiya mərkəzlərinin genişləndirilməsini təklif edib. Bu mərkəzlər həmçinin Almaniyada işlə təmin olunmaq üçün ixtisaslı işçilərə məsləhət vermək üçün istifadə edilə bilər. ”Bu, hər iki tərəfdən müəyyən miqdarda hazırlıq və investisiya tələb edir” deyə Şolz bildirib. Federal kansler Nigeriyadan Qanaya gedəcək.

Qazaxıstanın Avropa ölkələri ilə qarşılıqlı əlaqələri də siyasi şərhçilər arasında daha çox hallandırılır. Bildirirlər ki, Qazaxıstan Avropa ölkələri ilə əlaqələri inkişaf etdirir ki, bunun da tarixi köklər var. Qazaxıstan maraqları olan dövlətlərlə əlaqələri inkişaf etdirir.

Bir gün əvvəl Rusiya prezidentinin mətbuat katibi Dmitri Peskov Fransa prezidenti Emmanuel Makronun Qazaxıstana səfəri və burada həmkarı Kasım-Jomart Tokayevlə görüşünə münasibət bildirib. O, Qazaxıstanın suveren dövlət olduğunu və bütün ölkələrlə münasibətləri öz mülahizəsinə uyğun inkişaf etdirdiyini vurğulayıb. Bundan əvvəl Reuters xəbər vermişdi ki, Fransa prezidenti Emmanuel Makron qazaxıstanlı həmkarı Qasım-Jomart Tokayevlə Astanada keçirdiyi görüşdə respublikanın Ukraynadakı münaqişəyə yanaşmasını dəstəkləyib. Qeyd edək ki, əvvəllər Makronun Qazaxıstana səfəri tarixi hesab olunurdu.

Makron Astanadan Daşkəndə gedib. Özbəkistan və Fransa birgə ticarət palatası açıblar. Bu barədə Özbəkistan prezidenti Şavkat Mirziyoyevin mətbuat xidməti məlumat yayıb. Palatanın yaradılması barədə razılıq Mirziyoyev və Fransa prezidenti Emmanuel Makron arasında geniş tərkibdə danışıqların yekunu üzrə əldə olunub. Tərəflər Daşkənddə Business France agentliyinin ofisinin açılması barədə də razılığa gəliblər.

Bundan əvvəl Fransa prezidenti Emmanuel Mikronun Mərkəzi Asiya ölkələrinə turnesinin sonunda Özbəkistana gəlişi barədə məlumat yayılmışdı. Bu, Fransua Mitteranın 1994-cü ildə ölkəyə səfərindən sonra son 30 ildə Fransa liderinin Özbəkistana ilk səfəridir. Eyni zamanda, Özbəkistan prezidenti Şavkat Mirziyoyev təyinatından sonra iki dəfə - 2018 və 2022-ci illərdə Fransaya səfər edib.

Oktyabr ayında Fransa və Özbəkistan investisiyaların təşviqi və qorunmasına dair hökumətlərarası saziş imzalayıblar. Yelisey sarayının nümayəndələrinin sözlərinə görə, Daşkənddəki danışıqlar zamanı Makron əməkdaşlığın daha da dərinləşdirilməsi, o cümlədən iqtisadi və enerji əməkdaşlığı, həmçinin 30-a yaxın fransız şirkətinin artıq fəaliyyət göstərdiyi Özbəkistanda Fransanın mövcudluğunun genişləndirilməsi barədə razılığa gəlmək niyyətindədir.

Ekspertlər qeyd edirlər ki, Fransa prezidenti Emmanuel Makron Qazaxıstan və Özbəkistana səfərləri ilə ABŞ-dan müstəqilliyini nümayiş etdirməyə çalışır. Bununla belə, Fransanın beynəlxalq gündəmdə müstəqilliyi yoxdur və MDB ölkələri çətin ki, Parislə əməkdaşlıqdan faydalana bilsin. Fransanın Özbəkistan və Qazaxıstanla münasibətlərinin intensivləşməsi Makronun Ermənistanla flörtünün bir hissəsidir. Məsələn, praktikada silah tədarükü vədləri silah satışına çevrilir.

Bununla yanaşı, Rusiyanın qonşuları Rusiya üçün düşmənə çevrilmiş Avropa ilə əməkdaşlığı davam etdirməkdə maraqlıdırlar. ABŞ hakimiyyəti Makronun müstəqillik nümayiş etdirmək cəhdlərini boğur. O, Fransa liderini “Amerika peyki” adlandırıb. Görünür, Makron beynəlxalq məsələlərdə özünə geyindirməyə çalışdığı papağı bəyənmir.

***V.VƏLİYEV***

# Qida terroru: BİZİ NECƏ ZƏHƏRLƏYİRLƏR?

***“Elə bir dövrdə yaşayırıq ki, sənaye inkişaf etdikcə qidalarımız dəyişməyə davam edir. Yediyimiz, içdiyimiz işlənmiş-işlənməmiş hər cür maddəyə qida deyilir”. Bu sözləri SİA-ya açıqlamasında təhlükəsiz qida tədqiqatçısı Asim Vəliyev deyib. Asim Vəliyev sözlərinə belə davam edib: “Dünya siyasətinin aparıcı fikir adamlarından biri olan Kissincerin sözü çox düşündürücüdür.***



*MÜTƏXƏSSİS MÜNASİBƏT BİLDİRDİ*

“Neftə hökm etsən, dövlətlərə hökm edərsən. Qidaya hökm etsən



insanlara hökm edərsən”. Artıq qlobal dövlətlər qida üzərindən siyasətlərini həyata keçirirlər. Bu baxımdan da qida təhlükəsizliyi hər bir dövlət üçün milli təhlükəsizlik məsələsi hesab edilməlidir. Hər bir dövlət müstəqil aqrar siyasət həyata keçirməlidir.

Qidalar sağlam olmaq üçün deyil, doyum üçün tərceh edilir. Çox qazanc əldə edilməsi üçün qidaların rəf ömrünü uzatmaq üçün müxtəlif qatqı maddələri qatılır. Keyifyyətsiz, nəzarətsiz, nərdivan altı dediyimiz istehsal artır. Toxumlarımız artıq dəyişdirilib və toxum şirkətlərinin patenti altına alınıb. Əvvəllər əkdiyimiz ənənəvi dədə-baba toxumlarımız sıradan çıxarılıb. Fermerlər qlobal toxum şirkətlərindən asılı vəziyyətə gətirilib.

Qida sektoru tərəfindən istehsal olunan və aldadıcı reklamlarla insanlar üçün faydalı qida maddəsi olaraq təqdim olunan işlənmiş və onlarla qida qatqı maddəsi istifadə olunmuş qidalar insanların sağlamlığı üçün deyil, milyard dollarlıq qida bazarı xeyrinə çalışır. Bir tərəfdən sənaye üsulu qidalarla xəstələndirilən insanlar, digər tərəfdən dərman şirkətlərinin hədəfinə çevrilir. Bir sözlə insanlar marketlərdən, bazarlardan sağlamlıq əvəzinə öz xəstəliklərini satın almış olurlar. Bir çox dövlətlərdə qida və dərman şirkətləri əməkdaşlıq çərçivəsində fəaliyyət göstərir.

Yüksək miqdarda zərərli yağ, şəkər, duz və qatqı maddələri ehtiva edən işlənmiş və paketli qidalar insanları bioloji olaraq qidalandırmır. Qida qatqı maddələri ilə zəngin və qida dəyəri aşağı olan qidalar orqanizmdə toksinləri artırır və xəstəliklərin ortaya çıxması üçün zəmin hazırlayır. Nəticə etibarilə həm fiziki olaraq, həm də ruhən xəstə hala düşürük.

Bir tərəfdən qida sektorunun baş tacı edilmiş enerji içkiləri, digər tərəfdən reklamlarina milyonlar xərclənən fast-food restoran şəbəkələrinin qidaları, rəngli, qazlı içkilər geriyə qeyri-sağlam nəsil buraxmağa davam edir. Əgər cəmiyyət olaraq şüurlu şəkildə həyat tərzimizi dəyişib sağlam həyat tərzinə meyil etməsək, yaxın gələcəkdə genafondu məhv edilmiş, qeyri-sağlam bir cəmiyyət halına çevriləcəyik”.

***Ayşən Vəli***

# Yeni qayda əmlak bazarına necə təsir göstərəcək?



***“Azərbaycanda yeni qaydalara əsasən qanunsuz və icazəsiz tikilən yaşayış və qeyri-yaşayış tikililərə kommunal xidmətlərin verilməsi qadağan edilib. Buna görə indi sənədi olmayan, tikintiyə icazəsi olmayan torpaqlarda ticarət obyektləri və yaşayış mənzilləri tikmək qadağandır". Bu sözləri SİA-ya açıqlamasında daşınmaz əmlak üzrə ekspert Anar Nəsirov deyib.***

**EKSPERT AYDINLIQ GƏTİRDİ**

Onun sözlərinə görə, tikinti tikənlərin sayında ciddi azalma olacaq: ”Bu da öz növbəsində indiyə qədər tikilən evlərdə və obyektlərdə ciddi qiymət artımına gətirib çıxaracaq. Bundan başqa çıxarışı olan torpaqların da qiymətlərində ciddi artım olacağı qaçınılmazdır. Bu qərardan sonra həyət evləri və indiyə qədər kommunikasiya, su, işıq, qaz ilə təmin edilmiş evlərin də sənədsiz mənzillərdə də qiymət artımı gözlənilir. Bir sözlə, bu qanundan sonra Azərbaycan əmlak bazarında ciddi qiymət artımı qeydə alınacaq”.

Ekspert sözlərinə davam edərək bildirib ki, bu qiymət artımı bütün Azərbaycanda hiss ediləcək: ”Əsasən də, paytaxt Bakı şəhərində və ətraf qəsəbələrdə bu daha çox hiss olunacaq. Belə ki bu qərarın qüvvəyə minməsindən sonra təkcə həyət evləri və torpaq sahələri yox, yeni tikilən binalarda və sovet dövründə tikilən köhnə binalarda da qiymətlər artacaq. Qiymət artımına əsas səbəb kimi daha yeni tikilən sənədsiz evlərə alıcıların olmaması göstəriləcək. Digər səbəb isə sənədsiz torpağı olan vətəndaşların öz torpaqlarında ev və ticarət obyektləri tikə bilməyəcəyi olacaq. Mən bir ekspert kimi bunu deyə bilərəm ki, yeni qanunun qüvvəyə minməyindən sonra çıxarışı olan torpaq sahələrində və sənədləri qaydasında olan bütün əmlaklarda qiymət artımı olacaq. O cümlədən, qanundan qabaq kommunal və kanalizasiya xətləri qaydasında olan yaşayış evləri və ticarət obyektlərinin də qiymətlərində artım müşahidə olunacaq. Digər tərəfdən özbaşına və qanunsuz tikilən tikililərin sayında isə ciddi azalma hiss olunacaq. Bu da bizə bunu deməyə əsas verir ki, Azərbaycan əmlak bazarında sənədi olan evlərdə və ticarət obyektlərinin qiymətlərində ciddi artım qeydə alınacaq”.

***Ləman Sərraf***



**MƏTLƏB**
*Metlebsalahov@mail.ru*

# Dönər “biznesi”: murdar ətlər bizi necə məhv edir?

Elə bir mövzudan yazıram ki, bəlkə də kənardan sırf xırda problem kimi görünür, murdar “toyuq ətindən” hazırlanan, sağlamlığımızın əsl əcəlinə çevrilən dönər biznesi... amma xırda məsələ deyil, hətta günü bu gün İsrail-Fələstin müharibəsindən qat-qat aktual məsələdir xalq olaraq bizim üçün. Hər gün minlərlə, on minlərlə aşağı gəlirli Azərbaycan vətəndaşının qidalandığı dönər məhsulu sağlamlığımız baxımından önəmli yerdə dayanır. Çünki hər gün acanda ondan qidalanırıq. Bəs hansı ətdən, hansı şəraitdə və hansı standartlarla hazırlanır bu əcəl dönərləri?? Hə, bax bu məsələ bütün əmmaların açar mövzusudur. Min dəfə təəssüf olsun ki, bu sualın cavabı yoxdur. Heç kim bilmir nədən hazırlanır. Yalançı sertifikatları asıblar o dönərxanalardan fəxri fərman kimi. Amma hər kəsə məlumdur ki, o sertfikatların hamısı yalançı və fırıldaq formallıqdan başqa heç nəyə yaramır. Çünki dönərxanada bəh-bəhlə yediyin həmin dönər ətinin mənşəyini, sağlamlıq dərəcəsini axtarıb tapmaq qaranlıq tuneldə iynə axtarmaq kimi bir şeydir....

Bir haşiyə çıxmasam olmaz. Artıq bu yazını oxuyan hər kəs mənimlə razılaşar ki, artıq təbii qida deyilən məfhumu beyin hüceyrələrimizdən silmişik. Çünki ölkəmizdə təbii qida da artıq qəhətə çıxıb, əvəzində marketlərdə geni dəyişilmiş, insan sağlamlığı üçün ölüm saçan qidalarla orqanizmimizi məhv edirik. İri supermarketlərdə və hipermarketlərdə əsl mənşəyi və real qiyməti məlum olmayan ərzaqların adamın gözünə girdiyi bir vaxtda yaşayırıq. İndi təbii heç nə qalmayıb.

Hər gün nələr yeyirik? Filtirlənmiş, kimyəvi qatqı əlavə olunmuş su içirik, qatqı əlavə olunmuş yalançı süd, üzüağ salafan kimi ağappaq olan “qatıq”, ağardılması üçün neçə ton gübrə istifadə olunan və ən aşağı kateqoriyalı “undan” hazırlanan, ən dəhşətli xəstəlik törəyicisi sayılan zavod çörəyi, evlərə verilən çirkli suların həddən artıq xlorla doldurulması – bütün bu sadaladıqlarım dəhşətli də olsa gerçək həyatımızın acı rentgenidir. Hətta artıq süni ət və süni düyü dövrünün başlanmasına “bismillah” da edilib...

Bəli, hər şey artıq sünidir. Bu süni qida dövründə bir də kasıb kütlənin ayaqüstü öz mədəsini aldatmaq üçün gündəlik aldığı 2-3 manatlıq dönərlər də mənşəyi naməlum, hətta insan orqanizmi üçün həddindən çox təhlükəli “ətlərlə” zəngindir. Bu murdar ətlərdən hazırlanan dönərlərdən zəhərlənmə faktları kəllə-çarxa çıxıb artıq. Ən son bir neçə gün bundan əvvəl Binə qəsəbəsində 20-dən çox məktəbli dönərdən zəhərlənib xəstəxanalara düşdülər. Böyük, gənc, uşaq – bütün yaş kateqoriyalarında gündəlik istifadə olunan dönər ticarəti min təəssüf ki, nəzarətsiz əzrayıl kimi cəmiyyəti dolaşır. Necə olur ki, bu dönər ticarətinə ciddi nəzarət mexanizmi yaradılmayıb? Axı gündəlik on minlərlə insanın istifadə etdiyi bu qida ticarəti üzərində nədən nəzarət yoxdur? Mən qarışıq yəqin bütün cəmiyyət dönər biznesinin belə başdan-başa sərbəst, şıdırğı şəkildə rahat milyonlar qazanmasının mümkün olmadığına əminik.

Yəqin belə murdar ətlərdən hazırlanan dönər biznesi üçün gözlərini bilərəkdən “qapadan”, qulaqlarına pambıq tıxayan aidiyyatı qurumlar, cavabdeh şəxslər mütləq var. İndi hansısa küçəyə bir limon, bir stəkan tum qoyub satsan yüz yerdən başına yığılacaq, gözünü ova-ova icazə vərəqi tələb edəcəklər. Bəs bu boyda dönər biznesi üçün kimdən icazə alınıb? Hanı hər gün dönərxanalarda istifadə olunan toyuq və ət məhsullarının gerçək sağlamlıq kağızları? Formal, yalançı, müəyyən “şirinlik” müqabilində insan həyatı üçün təhlükə saçan qüsurlara göz yuman “nəzarət”in özü elə ən böyük cinayətdir!

Görəsən, insan həyatından baha tutulan dönər biznesi nə qədər can almalıdır ki, nəhayət ki, illərdir gözləri “bağlanan” təşkilatlar hərəkətə keçələr? Mənim özümdən tutmuş hamıya – hər gün aclığını ötüşdürmək üçün mənşəyi məlum olmayan dönərdən bəh-bəhlə yeyən on minlərlə insana da, dönər işi ilə məşğul olanlara da, bu dönər alverçilərinə nəzarət etməli olan təşkilatlara da gün kimi aydındır ki, bu gün Azərbaycanda heç bir məntəqədə standartlara uyğun çalışan bircə dənə də dönərxana yoxdur. Nə işin təşkili, nə alınan ətin sağlamlıq dərəcəsi, nə istifadə olunan ədviyyatlar qaydalara uyğun gəlmir.

Ən dəhşətlisi odur ki, dönərdən zəhərlənmə faktlarının əksəriyyəti ciddi-cəhdlə gizlədilir. Mətbuat, sosial şəbəkələr olmasa geniş cəmiyyət xəbərsiz qalacaq dönər biznesinin dəhşətlərindən. İstəmirlər zəhərlənmə barədə cəmiyyət bilsin, “yatmışlar oyansın”. Bu zəhərlənmələrdən xüsusən gənclər, tələbələr əzab çəkirlər. Biz həm də gələcək nəsillərimizi zəhərləndiririk bəribaşdan. Qida ekspertləri açıq şəkildə mətbuatda bəyan edirlər ki, ən təhlükəli, yararsız, ölmüş heyvan ətlərinin izi dönərxanalara gəlib çıxır. Bu “leş biznesi” sonda hamımızın sonuna çıxacaq, biz onun sonuna çıxa bilməsək də....




# İkili yanaşma və reallığı əks etdirən GÜZGÜ

***Məqam düşdüyündə dinc əhaliyə barbarcasına hücum edən və öz vəhşiliklərindən "ruhlanaraq" özləri barədə məğlubedilməzlik mifi yaradan namərd haylar, əsl savaşda mərdliklə döyüşən ordumuzun şücaəti qarşısında tab gətirə bilmədikdən, məğlubiyyətlərindən sonra hər dəfə yazıq, məzlum, əzilmiş və guya haqqı tapdalanmış xalq obrazlarını bütün dünyaya sırımağa çalışırlar ki, mərhəmət hissi oyadaraq, məkrli niyyətlərini gerçəkləşdirsinlər. Yalançı mərhəmət hissi fonunda isə bəzi qüvvələr ikili yanaşmadan çıxış etmək şansı əldə edirlər və bununla da reallığı əks etdirən güzgüdə çox eybəcər görünürlər.***

Artıq bütün dünyada söz, nüfuz sahibi olan, regional və qlobal layihələrə imza atan qüdrətli Azərbaycanın həmin o hayların umduqları mərhəmət hissinə, dəstəyə, yardıma, iyanələrə şərik olmaq fikri və ehtiyacı yoxdur. Amma ən azından ədalət naminə, həqiqətləri, reallıqları görməyə, eləcə də etiraf etməyə bütün dünyanın ehtiyacı var və haqsızlığa son qoyulması, nizam-intizam üçün bəşəriyyət ikili yanaşmaya deyil, dürüst yanaşmaya ehtiyac duyur. Ona görə ki, belə haqsız, ədalətsiz və ikili yanaşmalar nəticə etibarı ilə bütün dünya düzəninə təsir edəcək məqamlardır və əgər həqiqətən də nizam-intizam yaradılmasına maraq və diqqət varsa, hadisələri, prosesləri olduğu kimi qiymətləndirmək, terrorcu, işğalçı ilə işğala məruz qalanı görüb etiraf etmək, hətta hər kəsi öz adı ilə çağıraraq, onların məzlum, yazıq sifət almaqla, həqiqətlər təhrif etməklə, öz çirkin niyyətlərini gerçəkləşdirmələrinə rəvac verməmək gərəkir.

"Ermənistanın səsi" nəşrində, "Şəhərlərə raket hücumlarının qadağan edilməsinə dair beynəlxalq konvensiya qəbul edilməlidir", başlıqlı yazı ilə çıxış etmək ənənəvi hay həyasızlığının cəmi bircə nümunəsidir. Özlərinə məxsus cinayətləri, əlalxüsus da müharibə cinayətlərini başqalarının üstünə atmaq, adına "yazmaq" ermənilər üçün bir ənənə halını alıb. Əlalxüsus da, Qarabağ klanının maliyyələşdirdiyi, azərbaycan əleyhinə apardığı təbliğatı ilə tanınan "Ermənistanın səsi" adlı nəşr üçün bu ənənəyə sadiqlik qətiyyən təəccüb doğura bilməz. Amma məhz dinc şəhərlərə raket hücumu barədə Ermənistanın, bu işğalçı ölkənin hansısa bir nəşrinin, yaxud kiminsə fikir bildirməsi heç bir çərçivəyə sığışan deyil, çünki bu əməlin sahibi elə həmin ölkənin və bu ölkə hakimiyyətinin özüdür. Nəşrdə dərc olunan məqalədə qeyd olunur ki, "şəhərlərə raket hücumları zamanı baş verən humanitar fəlakətin miqyası əhalinin qəsdən kütləvi şəkildə məhv edilməsi forması kimi qiymətləndirilməlidir, çünki əməliyyatın qurbanı mülki əhali olur". Bu fikirlə razılaşmamaq niyyətimiz yoxdur, amma humanitar fəlakət və əhalinin qəsdən kütləvi şəkildə məhv edilməsi barədə kimin danışması məsələsi ilə razılaşmaq olmur, çünki özü işğalçılıq siyasəti yürüdən, qonşu dövlətin dinc şəhərlərinə dəfələrlə raket zərbələri endirmiş, günahsız uşaqları, qocaları qətlə yetirmiş bir ölkənin mətbuatında belə məzmunlu yazılar paradoksaldır. Gəncə, Bərdə, Mingəçevir və Tərtərə hücum etmək üçün "Smerç" artilleriya raketləri və "Skad-B" ballistik raketlərindən istifadə edənlərin şəhərlərə raket zərbələrinin endirilməsini qadağan edən beynəlxalq konvensiyadan dəm vurması hansı məntiqə sığışır? Axı sözügedən konvensiya ilə cəza tədbirləri Ermənistanın özünə tətbiq olunmalıdır.

Sadalanan məqamlar təəccüb və təəssüf doğurmaya bilməz, çünki reallıq ondan ibarətdir ki, Azərbaycanın mülki əhalisinə qarşı Ermənistanın hərbi cinayətlərinə təkcə erməni jurnalisti deyil, erməni nəşri deyil, dünya ictimaiyyəti də susur. Ermənistan tərəfindən törədilmiş və azərbaycanlı mülki şəxslərin qətliamlarına səbəb olan cinayətlərə hələ də beynəlxalq səviyyədə hüquqi qiymət verilməyib. Azərbaycanın dinc şəhərlərinə raket zərbələri endirilməsini əmr edən Arayik Arutyunyan artıq Azərbaycan qanunvericiliyinə uyğun olaraq cinayət məsuliyyətinə cəlb edilib, amma beynəlxalq məhkəmə, beynəlxalq hüquq bu faktları, sübutları görməməzliyə vurur. Amma Ermənistanın uyğurduğu və reallıqdan uzaq olan ən xırda yalançı ittihamlara və şərə belə dərhal reaksiya verilir. Bu, ikili yanaşmanın, ikili standartların tətbiqinin açıq-aşkar ortaya çıxması və nümunəsidir.

Azərbaycan dünyanın sərgilədiyi ikili standartları nə vaxta qədər görməlidir? Niyə Azərbaycan Respublikasının vətəndaşları kimi rahat şəkildə təhlükəsizlik yaşamaq imkanlarını on minlərlə erməninin nəzərə almadan köç etməsinə dırnaqarası "etnik təmizləmə" deyilir, amma ötən əsrin 90-cı illərində bir milyona yaxın azərbaycanlının öz torpaqlarından vəhşicəsinə silahla qovulmasına heç bir qiymət verilmir? Azərbaycan ərazilərini öz xoşları ilə tərk edən erməni qocaların və uşaqların göz yaşları və kədəri ümumbəşəri fəlakət sayılır, amma Xocalı faciəsi kimi insanlıq dramı, minlərlə azərbaycanlının qətli, əsir götürülməsi, işgəncələrə məruz qalması, öz yurd-yuvalarını ayaqyalın, başıaçıq tərk edənlər heç nəzərə də alınmır. Qonşu ölkənin ərazisini işğalçılıqla, terrorla, təcavüzlə ələ keçirmək öz müqəddəratını təyin etmə, yaxud demokratiya hesab olunur, lakin qanunsuz silahlı dəstələri öz ərazisindən təmizləyərək ölkəsinin təhlükəsizliyini təmin etmək, sülh şəraitində yaşamaq niyyətini bəyan etmək isə niyə militarizmin tərənnümü kimi qələmə alınır? Çox maraqlıdır ki, niyə Ermənistanın müdafiə naziri olmuş Tonoyanın yeni ərazilər ələ keçirmək hədələri mütərəqqi danışıqlar kimi görünür, amma Zəngəzur dəhlizi ilə bağlı Üçtərəfli Bəyanatın şərtlərinə əməl edilməsi tələbi qonşu dövlətin ərazisinə təcavüz kimi göstərilir? Bu qədər ədalətsizlik kimin nəyinə lazımdır və belə ikili yanaşmanın nə mənası var? Axı dünya bu yanaşmadan heç bir fayda əldə edə bilməz. Əksinə, belə ədalətsizliklər dünya düzəni üçün yaxşı heç nə vəd etmir, çünki işğalçıya "dəstək" vermək, onun yeni bəd əməllər törətməsi üçün ruhlandırılmasına gətirib çıxara bilər və dünya ölkələri belə terrorizmdən, separatçılıqdan heç də sığortalanmayıb.

Hər dəfə seçkidən sonra zorakılıqların qurbanı olmuş Ermənistan parlamentinin və onlarla etirazçının güllələbaran edilməsi fonunda yenə də işğalçı ölkə demokratik ölkə kimi göstərilir. Axı xaos hökm sürən belə bir ölkədə demokratiyadan danışmaq absurddur. Döyüşlər zamanı zədələnmiş erməni kilsəsinin bərpası nədənsə, "mədəni soyqırım və erməni irsinin məhv edilməsi" kimi təqdim edilir. Belə olan halda, yəqin, işğal olunmuş ərazilərdə yerləşən 67 məsciddən 65-nin ermənilər tərəfindən xarabalığa çevrilməsini utanmadan, qızarmadan abadlıq-quruculuq işlərinin nəticəsi kimi göstərə də bilərlər. Hətta bu utanmazlığın fonunda, müqəddəs ibadətgahlarımızda, məscidlərimizdə donuzların saxlanmasını da innovativ heyvandarlıq kimi təqdim etsələr, tam ikili yanaşmalarına müvafiq təqdimetmə kimi görünə bilər. Azərbaycanın işğal olunmuş ərazisindəki mədəniyyət abidələri ilə bağlı məşğul olmaqdan inadkarlıqla imtina edənlər, bununa görə vaxtlarının olmadığını deyənlər üçün, guya ermənilərə məxsus olan qırnaqarası "qədim abidələr" barədə araşdırma aparmağa vaxt tapılır və bu hətta onların müqəddəs borcu sayılır. Bu qədər də ayrıseçkilik, ədalətsizlik olmaz axı. Yəni, bütün dünya bu qədər faktları görməyə bilərmi? Yaxud, bu boyda, bu əndazədə fərq qoyula bilərmi?

Azərbaycanın işğaldan azad edilmiş ərazisinə ucaldılmış "dəmir yumruğu" vəhşilikdir kimi göstərənlər, nədənsə, hansı mətiqlə və hansı haqla isə, Xankəndində olan erməni tankını bədii düşüncənin şah əsəri kimi başa düşürlər. Əsrin üçdə birinə qədər müddət ərzində münaqişə ilə bağlı danışıqlara məhəl qoymamaq diplomatik strategiya sayılır, amma danışıqlar heç bir nəticə verməməsi fonunda Azərbaycanın ərazi bütövlüyünü bərpa etmək üçün hərbi yolu tətbiq etməsi təcavüz hesab olunur. İstənilən platformada qəbul olunan əsassız və qanuni qüvvəsi olmayan bəyanatlar dünya ictimaiyyətini narahat edir, amma Ermənistanın onillər boyu məhəl qoymadığı BMT Təhlükəsizlik Şurasının qətnamələri diqqətə belə layiq görülmür. Budurmu sərgilənən haqq və ədalət? Beynəlxalq hüquqa və normalara belə nəzarət edilir, yoxsa artıq bu kimi hallar qəbul ediləndir? Yəqin, ikili yanaşma o qədər adi hal alıb ki, bu qədər absurd yanaşma maneəsiz şəkildə davam edir.

Müqaisə ediləcək məqamlar, absurd yanaşmalar kifayət qədər çoxdur, amma sadalananlar özü ikili yanaşmanı sübut etmək üçün kifayət edir. Görünən odur ki, Azərbaycana qarşı törədilən cinayətləri saymayanlar reallıqları da qəbul etmək istəmirlər. Reallıqlar və həqiqətlər isə sadalanan ironik misallarda belə öz əksini tapır. Amma ikili standartlar, ikili yanaşma tətbiq edənlər reallığı əks etdirən güzgüyə qətiyyən baxmaq niyyətində görünmürlər. Reallıqları, həqiqətləri göstərən güzgü isə onları, ikili yanaşma ilə özlərini gülünc formaya salanları göstərmir. Hər halda özlərini həmin güzgüdə görmək istəyənlər ənənəvi ikili yanaşmalarından əl çəkməli, heç olmasa haqq və ədalət naminə, dünyamızın nizam-intizamı xatirinə erməni yalanlarını ifşa etməli, həqiqətləri etiraf etməli, Azərbaycanın, xalqımızın haqlı mövqeyini bundan sonra da olsa dəstəkləməlidirlər.

***İnam Hacıyev***

# Qalib Lider hər şeyi vaxtında və məharətlə edir

***2020-ci il 8 noyabr Qələbə, Zəfər Günü. Bəli, biz bu Böyük Zəfəri düz 30 il gözlədik. Ümidlə gözlədik, həsrətlə gözlədik. Belə bir fikir var: tarix qalibləri mühakimə etmir, həm də bu qalib haqq işi uğrunda qələbə qazanırsa! Bəli, 8 noyabrda Ali Baş Komandanımızın, Müzəffər Ordumuzun və Rəşadətli əsgər və zabitlərimizin şücəati ilə göz bəbəyimiz Şuşamız işğaldan azad olundu. Üçrəngli Bayrağımız artıq 3 ildir ki, Şuşamızda dalğalanmaqdadır.***



## PREZİDENT İLHAM ƏLİYEV: "Bu, bizim şanlı Qələbəmizin, Zəfərimizin günüdür"

TƏHLİL

Ölkə rəhbərimiz, Ali Baş Komandanımız İlham Əliyev xalqa müraciətdə bu böyük Qələbəni xalqına bəyan etməkdən böyük fəxarət və qürur hissi duyduğunu dedi: ”Böyük fəxarət və qürur hissi ilə bəyan edirəm ki, Şuşa şəhəri işğaldan azad edildi! Şuşa bizimdir! Qarabağ bizimdir! Bu münasibətlə bütün Azərbaycan xalqını ürəkdən təbrik edirəm. Bütün şuşalıları ürəkdən təbrik edirəm. İyirmi səkkiz il yarım işğal altında olan Şuşa azad edildi! Şuşa indi azaddır! Biz Şuşaya qayıtmışıq! Biz bu tarixi Qələbəni döyüş meydanında qazandıq. 2020-ci il noyabrın 8-i Azərbaycan tarixində əbədi qalacaqdır. Bu tarix əbədi yaşayacaq. Bu, bizim şanlı Qələbəmizin, zəfərimizin günüdür! Bu qələbəni biz döyüş meydanında qazandıq, danışıqlar masası arxasında yox”.Elə 8 noyabr Zəfər Günü Şuşanın işğaldan azad olunmasının bir ili ilə bağlı Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev Şuşada hərbçilər qarşısında çıxışı zamanı növbəti XƏBƏRDARLIĞINI etməklə bir daha dünyaya kimin kim olduğunu göstərdi. Azərbaycan xalqı xoşbəxt xalqdır ki, 30 il Qələbə həsrətinə 10 noyabrda son qouldu və bu tarixi yaşadı. Tarixi sənəd imzalandı: Dağlıq Qarabağ münaqişəsi Azərbaycanın tam qələbəsi ilə başa çatdı! Qarabağ bizimdir, Qarabağ Azərbaycandır! Vəssalam, nida! Başqa yol yoxdur!!! Bu yol Qələbələr yoludur! Bu yol Haqq yoludur! Bu yol Azərbaycanımızın ərazi bütövlüyü yoludur, ədalət yoludur, həmrəylik yoludur, azadlıq yoludur!

### ALİ BAŞ KOMANDAN NƏYİ EDİRSƏ, DƏQİQLİKLƏ EDİR

2020-ci ildə hərb meydanından gələn zəfər xəbərləri ilə qürurlanan xalqımız ondan sonrakı dövrdə də milli mənafeyimizin təmini ilə bağlı siyasi, diplomatik, beynəlxalq hüquq, informasiya, ümumiyyətlə, bütün sahələr üzrə dövlətimizin ard-arda qazandığı qələbələrlə fəxr edir. Ulu öndər Heydər Əliyev siyasi kursunu son 20 ildə uğurla davam etdirən Prezident İlham Əliyev bütün platformalarda Azərbaycanın milli maraqlarını prinsipiallıqla müdafiə edir. Çünki nə vaxt, nəyi, necə etmək lazımdır, bunu Ali Baş Komandan bilir. Həm siyasi müstəvidə, diplomatik müstəvidə, eyni zamanda, döyüş meydanında. Nəyi də edirsə, dəqiqliklə edirik. Məhz bu dəqiqliyin nəticəsidir ki, qalib lider İlham Əliyevin əzmlə, qətiyyətlə apardığı müdrik siyasətinin nəticəsidir ki, Azərbaycan işğala məruz qalan ölkədən Zəfər ölkəsinə çevrilib. Qarabağ və Şərqi Zəngəzura yeni həyat verilib, Böyük qayıdış köçünə başlanılıb.Qələbə Zəfərimizdən ötən 3 il müddətində ardıcıl olaraq böyük qələbələrin şahidiyik. Belə ki, aprelin 23-də Laçında sərhəd nəzarət-buraxılış məntəqəsi qurması ilə ölkəmiz bütün sərhədləri boyu üçrəngli bayrağımızı dalğalandıraraq suveren ərazilərimizin bütövlüyünü təmin edib. Milli maraqlarımızın təmini istiqamətində əldə edilən növbəti daha bir uğur isə sentyabrın 12-də 33 ildən sonra Ağdam–Xankəndi yolunun işə düşməsi bir daha regionda şərtləri diktə edən tərəf olduğunu təsdiqlədi. Bu, Azəbaycan Prezidenti cənab İlham Əliyevin növbəti qələbəsidir. Çünki Ağdam-Xankəndi yolunun siyasi iradə hesabına açılması güc yolu ilə işə düşməsindən dəfələrlə çətin məsələdir. Bu iradə isə ilk gündən istənilən ehtiyacın Azərbaycan tərəfi ilə razılaşdırmaqla və məhz Azərbaycanın ərazisindən keçməklə Qarabağa çatdırılmasını tələb edir. Bu tələb isə Azərbaycanın daxili işi və suveren haqqı kimi prinsipial məsələdir: ”Heç kim bizə təsir göstərə bilməz. Zənglər ola bilər, hansısa bəyanatlar ola bilər, onlara əhəmiyyət vermək lazım deyil. Sadəcə olaraq, siyasi nəzakət naminə biz bu zənglərə cavab veririk. Ancaq bu, bizim mövqeyimizi zərrə qədər dəyişməyəcək!” Sentyabrın 19-da Qarabağdakı qeyri-qanuni erməni silahlı birləşmələrinin həyata keçirdiyi hərbi təxribatlar və terror hücumlarına cavab olaraq Ordumuz bölgədə lokal xarakterli antiterror tədbirlərinə başladı. Bu tədbirlərin əsas məqsədi Qarabağ iqtisadi zonasına daxil olan ərazilərdə məskunlaşmış terrorçuların və qeyri-qanuni silahlı birləşmələrin zərərsizləşdirilərək təmizlənməsidir. Bu təxirəsalınmaz tədbirlərin həyata keçirilməsini zəruri edən və hüquqi əsasını formalaşdıran müddəalar isə 2020-ci il noyabrın 10-da imzalanmış üçtərəfli Bəyanatın 4-cü bəndində aydın şəkildə ifadə olunub. Təəssüflər olsun ki, nə Ermənistan tərəfi, nə də Rusiya sülhməramlı kontingenti bu günə qədər bu bəndin icrası ilə bağlı öhdəliklərini icra etmək üçün heç bir xoşniyyət addım atmayıb. Əksinə, həmin terrorçuların silahlandırılması və növbəti təxribatların həyata keçirilməsi üçün mümkün bütün vasitələrdən istifadə etməyə davam ediblər.

Məhz bu səbəbdən üçtərəfli Bəyanatın müddəalarının icrası, bölgədə yaşayan və fəaliyyət göstərən mülki vətəndaşlarımızın, hərbi qulluqçularımızın təhlükəsizliyinin təmin olunması, Azərbaycanın konstitusiya quruluşunun bərpası məqsədilə həyata keçirilən antiterror tədbirləri qaçılmaz olmaqla yanaşı, mütləq xarakter daşıyır.Sözü imzası qədər dəyərli və keçərli olar Ali Baş Komandan, Prezident İlham Əliyev sentyabrın 20-də xalqa müraciətində antiterror tədbirlərinin dayandırılması üçün Azərbaycanın şərtlərindən danışarkən deyib ki, bu gün səhər saatlarında bizə bildirildi ki, şərtlərimiz qəbul edilib.Müzəffər Ali Baş Komandan 200 il davam edən anti-Azərbaycan erməni hərəkatını öz ”Dəmir yumruğ”u ilə 24 saata darmadağın edildi və tarixin tozlu səhifələri arasında layiqli olduğu yerə göndərdi. Əməliyyat nəticəsində Azərbaycan Ordusu Cənubi Qafqazda erməni separatizminin kökünü demək olar ki, kəsdi və özünün söz sahibi mövqeyini daha da möhkəmləndirdi. Qarabağ bütöv, həm də məhz bizim arzu etdiyimiz şəkildə azad olundu. Separatçı rejim darmadağındır, rəhbərləri həbs olunur. Bu, Prezident İlham Əliyevin böyük misilsiz uğuru, zəfəridir. Bir sözlə, 2020-ci ilin 10 noyabrında əldə edilən Zəfər tamamlandı və suverenliyimiz tam bərpa olundu. Dövlətimizin başçısı həm Prezident kimi diplomatik müstəvidə, həm də Ali Baş Komandan kimi hərb meydanında ”nəyi nə vaxt etmək lazım olduğunu” hamıdan yaxşı bildiyini bir daha nümayiş etdirdi. Ordumuz bu vəzifənin öhdəsindən erməni separatçılarının dinc əhalini canlı qalxan kimi istifadə etməsinə rəğmən yüksək peşəkarlıqla gəldi. Və erməni ”miatsum”u, ”ikinci erməni dövləti” xəyalları birdəfəlik məhv edildi. Azərbaycan bir daha göstərdi ki, Cənubi Qafqazda söz sahibi olan ölkədir və onun suverenliyinə təhdid ola biləcək istənilən amili zərərsizləşdirmək iqtidarındadır.

### UĞURLU DİPLOMATİYANIN, SƏBRİN, HƏRBİ QÜDRƏTİN NÖVBƏTİ ZƏFƏRİ – PREZİDENT İLHAM ƏLİYEV XANKƏNDİDƏ AZƏRBAYCAN BAYRAĞINI QALDIRDI

Oktyabrın 15-də Azərbaycan Prezidenti növbəti işğaldan azad olunan torpaqlarımızda - Xankəndidə, Xocavənddə, Əsgəranda, Xocalı şəhərində, Sərsəng su anbarının ərazisində, Xankəndi şəhərinin mərkəzində Azərbaycan Bayrağını ucaltdıqdan sonra xalqa tarixi müraciətində bildirdi ki, iyirmi il bundan əvvəl Prezident kimi öz vəzifə borcumu yerinə yetirməyə başlayanda qarşıma bir nömrəli vəzifə qoymuşdum ki, Azərbaycan Bayrağı o vaxt işğal altında olan bütün ərazilərdə, bütün torpaqlarda, bütün şəhər və kəndlərdə qaldırılsın: ”Hər gün, hər saat biz bu müqəddəs məqsədə doğru gedirdik. Hər gün biz bu müqəddəs anı yaxınlaşdırırdıq və dəfələrlə deyirdim ki, hər birimiz, hərə öz yerində öz işi ilə bu günü yaxınlaşdırmalıdır. Bu illər ərzində Azərbaycan gücləndi, Azərbaycan dünya miqyasında özünə layiq yerini tuta bildi. Artıq Azərbaycanla dünyada hesablaşırlar. Ölkəmizin mövqeyi, dövlətimizin addımları nəinki bölgədə, daha da böyük coğrafiyada böyük məna daşıyır. Bir çox hallarda Azərbaycan önəmli təşəbbüslərin müəllifidir. Biz bu illər ərzində Ermənistan-Azərbaycan münaqişəsini həll etmək üçün güclü bir siyasi və hüquqi zəmin yaratdıq”.Azərbaycan Prezidenti xalqa etdiyi tarixi müraciətində onu da bildirdi ki, bu gün Xankəndidə olmağımızın əsas səbəbkarı Azərbaycan xalqıdır, Azərbaycan övladıdır: ”Elə bir gənc nəsil yetişdirdik ki, Vətən, torpaq uğrunda ölümə getməyə hazır idi və ölümə də gedirdi. Allah bütün şəhidlərimizə rəhmət eləsin. Biz onların ruhu qarşısında baş əyirik. Biz Azərbaycan xalqı olaraq onlara əbədi borcluyuq”.

”Həm üç il bundan əvvəl, həm son üç il ərzində, həm də sentyabr ayında keçirilmiş antiterror əməliyyatı zamanı Azərbaycan əsgəri, zabiti əsl qəhrəmanlıq, vətənpərvərlik, fədakarlıq göstərmişdir”,-deyən dövlət başçımız onu da vurğuladı ki, biz Ordumuzla, Silahlı Qüvvələrimizlə fəxr edirik, onlar bizim qürur mənbəyimizdir: ”Təkcə Azərbaycan vətəndaşları yox, əminəm ki, dünyada yaşayan on milyonlarla azərbaycanlı Azərbaycan əsgəri və zabiti ilə, Azərbaycan dövləti ilə haqlı olaraq fəxr edir”. Bu gün böyük qürur hissi keçiririk ki, son 20 ildə əldə etdiyimiz bu qələbə və uğurlar Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyev tərəfindən həyata keçirilən ”Güclü ordu - güclü dövlət” strategiyasının və ”Dəmir yumruq” əməliyyatı ilə 44 gün davam edən Vətən Müharibəsində Azərbaycan Ordusu yüksək döyüş bacarığının bütün dünyaya nümayişi idi. Bu, həm də bir daha nümayiş etdirdi ki, güclü, qüdrətli, yüz minlik ordunu heç kim dayandıra bilməz! Sözü imzası qədər dəyərli və keçərli olan Azərbaycan Prezidenti İlham Əliyev Xankəndidən xalqa etdiyi tarixi müraciətində biz bu gün buradayıq, Xankəndideyik, Xankəndinin mərkəzindəyik, Azərbaycan Gerbi, Azərbaycan Bayrağı altında. Bu, böyük xoşbəxtlikdir və tarixi hadisədir. İndi bu tarix haqqında danışmaq mənim üçün bəlkə o qədər də düzgün deyil. Çünki bu tarixi biz yaşamışıq, bu tarixi biz yaratmışıq. Azərbaycan xalqı elə bir Qələbə qazanıb ki, həm dillər əzbəri olub, həm də bu Qələbə əbədi bizimlə olacaq. Bu Qələbə bizim tariximizdə əbədi olacaq. Bizdən sonra gələn nəsillər bu Qələbə ilə əbədi və haqlı olaraq fəxr edəcəklər”.Bəli, bu gün hər bir qələbəmiz bir tarix, bir Zəfərdir. Bu qələbələrin, Zəfərlərin müəllifi Azərbaycan Prezidenti, Ali Baş Komandanımızın diplomatik siyasəti, Müzəffər Ordumuzun rəşadətli əsgər və zabitlərinin qəhrəmanlığıdır. Bəli, bu gün Ali Baş Komandanımız, Prezident İlham Əliyev bu tarixi qələbəni bir daha əbədiləşdirdi. Bu zəfərin formulu isə Müzəffər Ali Baş Komandan-Xalq Birliyi və Azərbaycan əsgəridir. 8 noyabr Zəfər Günün mübarək, Azərbaycan! Qarabağ Azərbaycandır! Zəfərin mübarək, Azərbaycan!

**RƏFİQƏ KAMALQIZI**

# Xərçəngə qalib gələn PEYVƏND?

ARAŞDIRMA



**_Düşməni məğlub etməyin ən yaxşı yolu onu tanımaq və ona qarşı düzgün strategiya hazırlamaqdır. Xərçəng də bir çox insan üçün qapıda gözləyən düşməndir. Ancaq bilmək lazımdır ki, bu o qədər də güclü düşmən deyil. İnkişaf etməkdə olan tibb sayəsində xərçəng artıq erkən diaqnoz qoyulduğu təqdirdə müalicəsi mümkün olan bir xəstəlikdir. Bəs, hansı xərçəng növlərində erkən diaqnoz mümkündür? Artıq hər kəs xərçəng xəstəliyində erkən diaqnozun əhəmiyyətini bilir. Xərçənglərin hamısını müayinə etmək mümkün olmasa da, ən son texnoloji cihazlarla skrininq vasitəsilə erkən mərhələdə aşkar edilən xərçənglər xəstələrin ömrünü uzadır. Müntəzəm müayinələr və yoxlamalar bəzi xərçəng növləri üçün həyati əhəmiyyət kəsb edir. SİA mövzu ilə bağlı araşdırma aparıb._**





## Süd vəzi xərçəngi

Dünyada qadınlar arasında ən çox rast gəlinən xərçəng olan süd vəzi xərçənginin erkən mərhələdə aşkar edilməsi üçün müayinə çox vacibdir. 20 yaşından başlayaraq ayda bir dəfə döş müayinəsi edərək sinənizi tanımaq və ən kiçik qeyri-adi dəyişiklikdə həkiminizə müraciət etmək lazımdır. Adətən 20-40 yaş arası 2-3 ildən bir həkim müayinəsindən keçməyi məsləhət görülür. 40 və 50 yaşından sonra ildə bir dəfə mamoqrafiya müayinəsi lazımdır.

## Uşaqlıq boynu xərçəngi

İlk cinsi təcrübədən sonra müayinə və yaxma testi hər il qiymətləndirilməlidir. Ardıcıl 3 il ərzində normal olarsa, testlər 2-3 ildən bir təkrarlana bilər. Ancaq immunitet sistemini zəiflədən xəstəliklər və ya dərman istifadəsi varsa (məsələn, QİÇS xəstəliyi, uzun müddətli kortizon istifadəsi) hər il check-up aparılmalıdır.

## Prostat xərçəngi

Ailəsində prostat xərçəngi olanların 45 yaşından, prostat xərçəngi olmayanların isə 50 yaşından başlayaraq prostat müayinəsi və PSA testlərinin olması vacibdir. Onu da bilmək lazımdır ki, prostat xərçəngi kişilərdə ağciyər xərçəngindən sonra ən çox rast gəlinən xərçəng növüdür.

Unutmayın ki, iş yükü və narahatlıqlar müayinəyə mane olmamalıdır. Müayinə zamanı aşkar edilən infeksiyalar erkən aşkarlandıqda sadə müalicə üsulları ilə aradan qaldırıla bilər. Lakin xəstələrin müayinə olunmaq qorxusu və sıx iş qrafiki diaqnoz və müalicə imkanlarını gecikdirir. Proqressiv infeksiyalar daha intensiv müalicə tələb edir. Çünki yumurtalıq kistaları, miomaları olan, siqaret çəkən, ailəsində xərçəng xəstəliyi olan, erkən yaşda cinsi əlaqədə olan, birdən çox partnyoru olan, aybaşı pozğunluğu olan qadınlar üçün mütəmadi müayinələr son dərəcə vacibdir.

Ötən ay bir fransız biotexnologiya şirkəti təkmilləşdirdiyi xərçəng peyvəndinin bəzi ağciyər xərçəngi olan insanlarda ölüm riskini yarıya qədər azaltmaqda təsirli olduğunu açıqlayıb. Belə ki, biotexnologiya şirkəti "Ose Immunotherapeutics" tərəfindən istehsal edilən yeni peyvəndin ağciyər xərçənginin ən ağır növləri olan xəstələrin ölüm riskini 41 faiz azaldtığı açıqlanıb.

"Tedopi" adlı peyvəndin bazara çıxarılmasından əvvəl son addım olan 3-cü faza klinik tədqiqatın nəticələri "Annals of Oncology" jurnalında dərc olunub. Terapevtik faydalarının qiymətləndirildiyi bu mərhələdə vaksin ağciyər xərçənginin ən çox görülən növü olan və ümumiyyətlə şüa terapiyasına daha az həssas olan inkişaf etmiş kiçik hüceyrəli ağciyər xərçəngi olan xəstələrə verilmişdir.



Tədqiqatda doqquz Avropa ölkəsi və ABŞ-dan cəmi 219 xəstə iştirak edib, onların hamısı digər müalicələrə müqavimət göstərib. Bu xəstələrin 139-u "Tedopi" peyvəndi, qalan 80-i isə kimyaterapiya müalicəsi alıb.

"Tedopi" qəbul edən xəstələrin həyat keyfiyyətinin və sağ qalma nisbətlərinin kimyaterapiya alanlara nisbətən artdığı müşahidə edilmişdir. Tədqiqatın aparıcı müəllifi, "Gustave Roussy" İnstitutundan professor Benjamin Besse, "Ölüm riskində danılmaz 41 faiz azalma müşahidə edildi" dedi.

"Ose Immunotherapeutics" peyvəndi bu tədqiqatda üçüncü sıra müalicə kimi istifadə edilmişdir, yəni xəstələr bundan iki başqa müalicə almışlar. Bununla yanaşı türkiyəli alim döş xərçənginin erkən aşkarlanması üçün geyilə bilən ultrasəs cihazı hazırlayıb.

İmmunitet sistemini alışdıran peyvəndlər

Terapevtik xərçəng peyvəndləri şiş hüceyrələrini xüsusi olaraq tanımaq və məhv etmək üçün immunitet sistemini buna öyrətmək məqsədi daşıyır. Başqa sözlə, xərçənglə mübarizə aparmaq üçün xəstənin öz müdafiə sistemindən istifadə edilir. İmmunoterapiya sahəsi 2010-cu illərdən bəri ciddi irəliləyişlər əldə edib və Xərçəng Araşdırmaları Böyük Britaniyaya görə pandemiya zamanı "peyvəndlərin, xüsusən də "mRNA" vaksinlərinin istehsalını sürətləndirən" tədqiqatlardan faydalandı. O vaxtdan bəri bir neçə immunoterapevtik müalicə təsdiqlənib və tədqiqatlar hələ də davam edir.

Araşdırmalar göstərir ki, süni intellektin köməyi ilə döş vəzilərinin skan edilməsi xərçəng diaqnozunu 20 faiz artırır. Britaniya hökuməti "BioNTech" ilə xərçəng peyvəndi sınaqlarına başlamaq və 2030-cu ilə qədər 10 000 xəstəni müalicə etmək üçün müqavilə imzalayıb. Mənbələrə görə, qlobal xərçəng peyvəndi bazarının 2033-cü ildə 22 milyard avro dəyərində olacağı gözlənilir. "Ose Immunotherapeutics" şirkətinin səhmlərinin dəyəri sınaq nəticələrinin açıqlanmasından bir gün sonra Paris Birjasında 60 faiz artıb.

Bildirək ki, ötən ay İspaniyanın paytaxtı Madriddə keçirilən Avropa Tibbi Onkologiya Cəmiyyətinin (ESMO) Konqresində biotexnologiya şirkəti "Biontech"in qurucuları Uğur Şahin və Özlem Türeci 15 ildir üzərində çalışdıqları xərçəng peyvəndinin ilk nəticələrini açıqlayıblar. "Biontech" tərəfindən hazırlanmış xərçəng peyvəndi "CARVac"dan əldə edilən ilk nəticələrdə şişlərin böyüməsini dayandıra biləcəyi və hətta onların kiçildilə biləcəyi açıqlandı.

Peyvəndin 44 xəstəyə dörd dozada tətbiq edildiyi və xəstələrin yüzdə 59-da şişlərin ən azı 30 faiz kiçildiyi bildirilib. Deyilənlərin 95 faizində peyvənddən sonra xərçəngin stabilləşdiyi və böyüməsinin dayandığı bildirilib.

Qeyd olunub ki, peyvəndin tətbiqi zamanı subyektlərdən 23-də dozadan asılı olaraq iltihab reaksiyalarında artım müşahidə olunub, xəstələrdə aşağı təzyiq və qızdırma kimi əlavə təsirlər müşahidə edilib. Bildirək ki, "Biontech" 2030-cu ilə qədər təxminən 10 min xərçəng xəstəsini müalicə etməyi hədəfləyir".

_**Ayşən Vəli**_





# “Azərbaycançılıq” ideyasının dərk olunmasının əsasında birlik ideyası durur

***Milli bağlılığı təcəssüm etdirən dövlətçiliyin qurulması və onun inkişaf etdirilməsi hər bir xalqın nəyə qadir olduğunu göstərir. Tarixən xalqlar öz dövlətlərini qurmaq uğrunda mübarizə aparmış və bu yolda canlarından keçmişlər. Hansı xalq məqsəd və hədəfindən yayınmayıbsa, o xalq dünya dövlətləri sırasında layiqli yer tutmağı bacarıb, zəif və qətiyyətsiz xalqlar milli varlığından məhrum olublar. Xoşbəxt xalqlardanıq ki, dünya dövlətləri arasında Azərbaycan adlı dövlətimiz var və bu dövlət siyasi, hərbi, iqtisadi, diplomatik uğurları ilə seçilən və tanınan dövlət olaraq qəbul edilir.***



Söz yox ki, dövlətimizin qurulması, inkişafı və möhkəmlənməsi Ulu Öndərimiz Heydər Əliyevin adı ilə bağlıdır. Bu gün hər kəs bu reallığı açıq və sevinclə etiraf və qeyd edir, bəli, bugünkü güclü və qüdrətli Azərbaycan dövləti Dahi Öndərimiz Heydər Əliyevin şah əsəridir. Ulu Öndər Heydər Əliyevin 1993-cü ildə xalqın istəyi ilə hakimiyyətə qayıdışından sonra Azərbaycanda əldə edilmiş milli birlik respublikamızın ən qiymətli mənəvi-ideoloji sərvətlərindən biridir. Ulu Öndərimiz Heydər Əliyev çıxışlarının birində dövlətçiliyin qorunub saxlanması və inkişaf etdirilməsi barədə demişdir: “Dövlətçilik bu gün və gələcəkdə bizim hər bir vətəndaşımızın, cəmiyyətin, dövlətin əsas vəzifəsidir. Dövlətçilik Azərbaycanın müstəqilliyini, ərazi bütövlüyünü qoruyub saxlamaqdır, Azərbaycanın müstəqilliyini möhkəmləndirməkdir. Dövlətçilik hər bir vətəndaşın qəlbində olmalıdır”. Azərbaycan xalqı və dünya azərbaycanlıları 2023-cü ili Dahi Öndər Heydər Əliyevin anadan olmasının 100 illiyini böyük təntənə ilə qeyd edir. Bu münasibətlə ölkə Prezidenti Cənab İlham Əliyevin müvafiq Sərəncamı ilə 2023-cü il Azərbaycanda “Heydər Əliyev İli” elan olunub. “Heydər Əliyev İli” çərçivəsində nəinki Azərbaycanda, ümumiyyətlə, dünyanın müxtəlif bölgələrində böyük təntənəli şəkildə tədbirlərin, yığıncaqların keçirilməsi, sərgilərin təşkil olunması, filmlərin nümayiş etdirilməsi xalqın Dahi Öndərimiz Heydər Əliyevə olan əbədi sevgisinin, ən bariz təcəssümüdür.




### “Hər bir insan üçün milli mənsubiyyəti onun qürur mənbəyidir”

Azərbaycan dövləti dünya azərbaycanlılarının potensial imkanlarını cəmləmək, müstəqil dövlət quruculuğu prosesində meydana çıxan müxtəlif problemlərin həllinə yönəltmək, daha sıx əlaqələr yaratmaq, milli birliyə nail olmaq istiqamətində ardıcıl və sistemli iş aparmışdır. ”Hər bir insan üçün milli mənsubiyyəti onun qürur mənbəyidir. Həmişə fəxr etmişəm, bu gün də fəxr edirəm ki, mən azərbaycanlıyam. Müstəqil Azərbaycan dövlətinin əsas ideyası azərbaycançılıqdır. Hər bir azərbaycanlı öz milli mənsubiyyətinə görə qürur hissi keçirməlidir və biz azərbaycançılığı - Azərbaycan dilini, mədəniyyətini, milli-mənəvi dəyərlərini, adət-ənənələrini yaşatmalıyıq”, - deyən Heydər Əliyev dühası azərbaycançılığı milli ideologiyaya çevirməklə cəmiyyətin həmrəylik və bütövlüyünə, mənəvi birliyinə nail olmuşdur. 2001-ci ilin ən yaddaqalan və milli həmrəyliyimizin nümayişinin ən yüksək zirvələrindən biri noyabrın 9-10-da Bakıda Dünya Azərbaycanlılarının I Qurultayının keçirilməsi olmuşdur. Ümummilli Lider Heydər Əliyevin 2001-ci il mayın 23-də imzaladığı sərəncama əsasən, keçirilmiş bu qurultay dünyanın müxtəlif ölkələrində yaşayan soydaşlarımızın və həmvətənlərimizin müstəqil Azərbaycan Respublikası ilə əlaqələrinin daha da möhkəmləndirilməsi, dünya azərbaycanlıları arasında birliyin, həmrəyliyin təmin olunması, habelə Azərbaycan icmaları, cəmiyyət və birliklərinin fəaliyyətinin gücləndirilməsi və əlaqələndirilməsi üçün şərait yaratmışdır.

Qurultaydan sonra Azərbaycan diaspor hərəkatı tamamilə yeni mərhələyə qədəm qoymuşdur. Ümummilli Lider Heydər Əliyev bu sahədə dövlət siyasətinin sistemli həyata keçirilməsini təmin etmək məqsədilə 2002-ci ildə “Xaricdə Yaşayan Azərbaycanlılarla İş Üzrə Dövlət Komitəsinin yaradılması barədə” Fərman imzalamışdır. Komitənin yaradılması xaricdəki Azərbaycan cəmiyyətlərinin, birliklərinin və dərnəklərinin fəaliyyətinin vahid mərkəzdən koordinasiyasına, habelə onların dövlət qayğısı ilə əhatə olunmasına geniş imkanlar vermişdir. Dövlət Komitəsinin yaradılması dünya azərbaycanlılarının konsolidasiyasında, diaspordan lobbiyə doğru inkişafında yeni bir mərhələnin başlanğıcını qoymuşdur. Komitə qısa müddətdə dünyanın müxtəlif ölkələrində yaşayan soydaşlarımızın azərbaycançılıq ideyası və Azərbaycan dövləti ətrafında birləşməsi istiqamətində xeyli iş görməyə müvəffəq olmuşdur.

### Azərbaycançılıq ideologiyası vahid birlik formalaşdırır

Fəxarət hissi ilə qeyd etmək olar ki, Ulu Öndərin layiqli davamçısı, Azərbaycan Prezidenti, Yenilməz Sərkərdə, Ali Baş Komandan İlham Əliyev də diaspor və lobbi quruculuğuna mühüm məsələlərdən biri kimi yanaşır. Ötən 20 ildə bu yöndə ardıcıl və sistemli tədbirlərin həyata keçirilməsini təmin edən Prezident İlham Əliyev müxtəlif ölkələrə səfərləri çərçivəsində soydaşlarımızla keçirdiyi görüşlərdə milli diaspor təşkilatlarının vahid, mütəşəkkil qüvvə kimi təşkilatlanması zərurətini önə çəkmiş, bunun ideoloji-siyasi konturlarını müəyyənləşdirmişdir. Dövlət başçısı müasir dövrdə bu sahəyə xüsusi diqqət ayırmadan xarici siyasətdə ciddi uğur qazanmağın qeyri-mümkünlüyünü çıxışlarında dəfələrlə vurğulamışdır. Prezident İlham Əliyevin 8 fevral 2006-cı il tarixli sərəncamı ilə 2006-cı il martın 16-da Bakı şəhərində Dünya Azərbaycanlılarının II Qurultayının keçirilməsi diaspor quruculuğu işinə yeni nəfəs verməklə ən əlamətdar hadisələrdən biri kimi yadda qalmışdır. Dünya Azərbaycanlılarının II Qurultayının keçirilməsində isə məqsəd hesabat dövründə diaspor quruculuğu istiqamətində görülmüş işləri dəyərləndirmək, habelə xaricdə yaşayan soydaşlarımızın üzləşdiyi bəzi problemləri, yaşadıqları ölkələrin siyasətinə təsir imkanlarını öyrənmək, onların tarixi Vətənlə daha geniş əlaqələrinin qurulmasına xidmət edən tədbirlərin hazırlanmasını təmin etməkdən ibarət olmuşdur. 16 mart 2006-cı il tarixdə keçirilmiş qurultayda Azərbaycan diasporunun hazırkı vəziyyəti müzakirə edilmiş, bu sahədə çalışan təşkilatların fəaliyyətlərinin əlaqələndirilməsi işinin təkmilləşdirilməsi, ölkə həqiqətlərinin, xalqımıza qarşı törədilmiş terror və soyqırımı aktları ilə əlaqədar çoxsaylı faktların dünya ictimaiyyətinə çatdırılmasının daha müasir metodlarının hazırlanması, digər xalqların diaspor təşkilatları ilə əlaqələrin gücləndirilməsi məsələləri xüsusilə önə çəkilmişdir. Milli dövlət ideologiyası olan azərbaycançılığın gücü ondadır ki, o, xalqın milli-mədəni kimliyini həm müdafiə etməyi və həm də qoruyub saxlamağı bacaran dövlətlə insanların fərdi sosial-mədəni meyillərini üzvi şəkildə birləşdirməyə qadirdir.

Bir sözlə, ictimai həyatımızın bütün sahələrində azərbaycançılıq istiqamətləndirici məfkurə kimi tarixi keçmişimizin məhsulu olan milli-mənəvi dəyərlərin varlığını qoruyub saxlayır. Qətiyyətlə demək olar ki, bu ideologiya heç bir zaman sarsılmayacaq. Nə qədər Azərbaycan dövləti və xalqı var, azərbaycançılıq ideologiyası da var olacaq.

**İ. ƏLİYEV**



# Yaşayarkən deyil, itirərkən...



***Gənclik… İnsan ömrünün ən gözəl, əvəzolunmaz çağı. Əgər bilsək ki, gənclik əldən gedəndən sonra arxasınca düşüb axtaracaq, arayacaq, yenidən həyatımıza qaytarmağa çalışacağıq, lap əvvəldən onun qədir-qiymətini bilərik. Çünki gəncliyin nə qədər gözəl olduğunu onu yaşayarkən deyil, itirəndən sonra tam mənası ilə dərk edirik.***





O vaxt dərk edirik ki, saçlarımız yavaş-yavaş ağarmağa başlayır. O ağlar bizi gənclikdən çox uzaqlara aparır. Nə qədər gözəl, təravətli görünməyə çalışsaq da, saçların arasından boylanan ağlar artıq başqa bir yolçuluğa çıxdığımızdan xəbər verir.

Gəncliyin gözəlliyini, əvəzolunmazlığını o zaman dərk edirik ki, güzgü qarşısında gözlərimizin ətrafında kiçik qırışları görürük. O şüşə kimi dümdüz, hətta gülümsəyəndə belə heç bir qırış yaranmayan üzümüzdəki cizgilər bizə yeni bir yolun başlanğıcında olduğumuzu söyləyir.

Gəncliyin əlimizdən uçmaqda olduğunu o zaman anlayırıq ki, ümumilikdə əvvəlki görkəmimizdən əsər-əlamət qalmır. Bu zaman nə etsək də gənclik dövrümüzün bir anını belə geri gətirə bilmirik. Üzümüzdəki qırışlar get-gedə daha da dərinləşir. Saçlarımız gündən-günə daha çox ağarmağa başlayır. Bəzənib-düzənəndə, geyinib-kecinəndə atrıq gənclikdə göründüyümüz qədər şux və gözəl görünmürük.

İllər gəncliyimizdən ötür İllər gəncliyimizi bizdən qoparır. İllər həm də gözəlliyimizi və yaraşığımızı bizdən alır. Lakin fərqində olmuruq, düşünürük ki, elə həmişə belə görünəcəyik. Bu gözəlliyi, yaraşığı kim əlimizdən ala bilər ki? Bu, bizə məxsusdur. Bunu Yaradan verib bizə, bizim də olacaqdır. Lakin illər axı bunu demir, illər başqa söz söyləyir və söylədiklərinin hər birini həyat bizə yaşadır.

Elə ki, gəncliyin son akkordlarını dinləyirik, bundan sonra başlayırıq yavaş-yavaş yaşlanmağa. Hələ də gənclikdən əlimizi üzmürük. Düşünürük ki, yox, o, əlimizdən hara gedə bilər ki?.. Lakin gedir, həm də sürətlə gedir. Getdikcə də zərbələrini vurur. Biz anlayanda ki, yox, ta o gənclikdən heç nə qalmayıb, başlayırıq onu yenidən axtarmağa. Bunun üçün axtarışlar edirik, nələrə əl atırıq, nə əziyyətlər çəkirik, zəhmət sərf edirik, lakin gəncliyi daha heç yerdə tapa bilmirik.

Yaşlanırıq Gəncliyin son nişanələrini itiririk. İtirdikcə də ən dəyərli nəyisə itirdiyimizi hiss edirik. Deyirlər, adam nəyisə itirəndə, ölənədək gözü onu axtarır. Bax, bir də gənclik belədir. Baxırsan ki, yaş ötüb, olub 50-60, sən hələ də onu-gəncliyi axtarırsan. Gözlərin hər yerdə onu gəzir. Fotoları tökürsən qarşına, başlayırsan onlarla danışmağa. Kimlərəsə o şəkilləri göstərməklə gəncliyini göstərmək istəyirsən. Sənin də gənclikdə gözəl və yaraşıqlı olduğunu sübut etmək, hamının bilməsini istəyirsən

Lakin bunlar da keçicidir. Andır, anlar isə keçir, gedir. Sənsə olduğun yerdəsən. Daha gənc deyilsən, yaşlanmaqdasan. Bax bu an ürəklər sızlayır. Düşünürsən ki, ah, nə tez ötüb getdi gəncliyim. Kaşki bir daha dönərdim o çağlara. Kaşki yenidən gənc olardım. Kaşki o illərin bircə anını geri qaytara bilərdim.

Təəssüf ki, mümkün deyil. Gənclik getmişdir, yerinə yaşlılıq gəlmişdir. Ta sənin yol yoldaşın təravət deyil, soluxmuş üz, qırışlı əllərdir. Nə qədər çalışsan da, şux qamət deyil, o sürətli addımlar deyil, əyilmiş qamətinlə yavaşıyan addımlardır. Sənin yolyoldaşın günəşin zərrin şəfəqlərində parıldayan saçlar deyil, yıpranmış, ağarmış, daha parlamayan saçlardır.

Bəs ürəklər  Bəli, tək ürəyin gəncliyini bizdən qoparmağa heç bir qüvvənin gücü çatmır. İçimizdə, köksümüzdə bəlkə də o da qocalır, bilmirəm kiçilirmi deyim, yaşlanma səbəbindən formasını itirirmi deyim, lakin istəkləri, həyata baxışı, dəyişmir. O, gənclik duyğuları ilə yaşayan və bu duyğuları hər an insana anladan tək olanımızdır, ürək  Bəlkə elə buna görə deyirlər ki, ürək qocalmır. Qocalmır, bəli. Gənclikdən bizə qalan tək ürəyimizdir. Bəlkə də tək ürək qocalmır ki, gəncliyi hər an insana anlada. Nə qədər gözəl bir dövrün əldən getdiyini hər an xatırlada və deyə ki, insan övladı, nə üçün qədrini bilmədin gəncliyin. Bəli, elə bu səbəbdən ürəyin qocalmamasına hökm verilib, inanın

Beləcə, həyatda qiymətini biləcəyimiz, borclu olacağımız çox şeylər var. Gənclik də onlardan biridir. Gözəlliyimiz, yaraşığımız ilə birlikdə fəal, aktiv iş həyatımız da gəncliklə bağlıdır. Dünyaya övlad bəxş etməyimiz, onu böyük səbrlə böyütməyimiz də gəncliyin bəxşişidir. Ev qurmaq, ev sahibi olmaq da gəncliyin ərməğanıdır. Sözün həqiqi mənasında, bütün gözəl görünən hər şey gənclikdədir. Yaşayarkən qədrini bilmədiyimiz, sonra çıraq işığında axtardığımız gənclik

Qədrini bilin gəncliyinizin, əziz gənclər. Çünki insan övladına verilən ömrün dörd fəslinin ən gözəli gənclikdir. Gənclik bahardır, yazdır. Çiçəkləri, rayihəsi ilə gözəldir. Rəngləri, rəngarəngliyi ilə gözəldir.

Demirik ki, uşaqlıq, qocalıq çağları yaxşı deyil. Onların da özünəməxsusluqları var. Biz uşaq olmasaq, gəncləşə bilərikmi? Gənc olmasaq, yaşlaşa, nənə-baba ola bilərikmi? Nəvə sevgisini, şirinliyini yaşaya bilərikmi? Ağ saçlar, ağ saçlar deyirik, yaşlanmasaq, o müdrikliyi yaşaya bilərikmi? Bütün fəsillər kimi, insan ömrünün də bütün çağları gözəldir. Lakin gəlin etiraf edək ki, gənclik onların ən gözəli və əvəzolumazıdır.

***Mətanət Məmmədova***



Babayev Nihad Akif oğlu
Mirzəyev Orxan Əli oğlu

# Şəhidlərin anım günündə xatirələri yad edildi



Noyabr ayının 2-də Biləsuvar rayonunun Günəşli kəndində "Vətən Müharibəsi Qəhrəmanı", şəhid kapitan Babayev Nihad Akif oğlu və Aşağı Cürəli kəndində şəhid Mirzəyev Orxan Əli oğlunun anım günləri ilə əlaqədar ailələri ziyarət olundu. Ziyarətdə YAP Biləsuvar rayon təşkilatının əməkdaşları, partiya fəalları, şəhid valideynləri və ictimaiyyət nümayəndələri iştirak ediblər. Ziyarət zamanı qəhrəman şəhidlərimizin şərəfli döyüş yolundan söz açılmış xatirələri yad edilmişdir. İştirakçılar bildirmişlər ki, Azərbaycan xalqının qüruru, fəxri olan şəhidlərimizin xatirəsi daima əziz tutulacaq, dövlətimiz hər zaman şəhidlik zirvəsinə ucalan igidlərimizin ailələrinin yanında olacaqdır.

Məlumat üçün qeyd edək ki, Azərbaycan Ordusunun kapitanı olmuş "Vətən Müharibəsi Qəhrəmanı", şəhid Babayev Nihad Akif oğlu 30 avqust 1991-ci ildə Biləsuvar rayonunun Günəşli kəndində anadan olub. 15 yaşında Cəmşid Naxçıvanski adına hərbi liseyə, 18 yaşında Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinə yüksək nəticə ilə qəbul olub. 2012-ci ildə leytenant rütbəsi alaraq xüsusi təyinatlı qüvvələrdə təlimə başlayıb və kursu uğurla bitirdikdən sonra Naxçıvana xidmətə göndərilib. Daha sonra isə Türkiyədə snayper təlimlərində iştirak edərək uğurlu nəticələr qazanıb, ardınca Gürcüstanda dağadırmanma üzrə xüsusi kurs keçib. Nihad Babayev peşəkar kəşfiyyatçı kimi erməni, ingilis və rus dillərini bilib.Kəşfiyyatçı kimi xidmətləri çox olsa da, ilk geniş hərbi əməliyyatı 2018-ci ildə Naxçıvanda "Günnüt əməliyyatı"nda olub. Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda 27 sentyabr 2020-ci il tarixindən başlayan II Qarabağ müharibəsində iştirak edib Füzuli, Cəbrayıl, Qubadlı və Zəngilan uğrunda döyüşlərdə iştirak edərək qruplara komandanlıq edib və Füzuli rayonun Yuxarı Veysəlli kəndinə yaxın Uryandağ yüksəkliyi uğrunda gedən döyüşlərdə qəhrəmancasına şəhid olub. 2 noyabr 2020-ci il tarixində doğulduğu kənd qəbiristanlığında torpağa tapşırılıb. Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamlarına əsasən şəhid kapitan Babayev Nihad Akif oğlu ölümündən sonra Azərbaycan Respublikasının ən ali fərqlənmə dərəcəsi - "Vətən Müharibəsi Qəhrəmanı" adı ilə və "Vətən uğrunda", "Xocavəndin azad olunmasına görə" və "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edilmişdir. Ölümündən sonra adı əbədiləşdirilərək Biləsuvar Regional Mədəniyyət İdarəsinin Xırmandalı kənd Uşaq İncəsənət Məktəbinə verilmişdir.

Azərbaycan Ordusunun əsgəri olmuş şəhid Mirzəyev Orxan Əli oğlu 12 iyul 2001-ci ildə Biləsuvar rayonunun Aşağı Cürəli kəndində anadan olmuşdur. Aşağı Cürəli kənd tam orta məktəbində orta təhsil almışdır. Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda 27 sentyabr 2020-ci il tarixindən başlayan II Qarabağ müharibəsində iştirak edib, döyüşlərdə şücaət göstərib və Laçın rayonu istiqamətində gedən döyüşlərdə qəhrəmancasına şəhid olmuşdur. Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamlarına əsasən şəhid Mirzəyev Orxan Əli oğlu ölümündən sonra "Vətən uğrunda", "Laçının azad olunmasına görə" və "Suqovuşanın azad olunmasına görə" medalları medalları ilə təltif edilmişdir. Allah şəhidlərimizə rəhmət eləsin!

# Yüksək diqqət və qayğının nümunəsi



PREZİDENT İLHAM ƏLİYEV: "Dövlət şəhid ailələrinin problemlərinin həlli üçün əlindən gələni edir və edəcək"

Hər bir dövlət və cəmiyyət üçün hərbi əməliyyatlarda iştirak edən şəxslərin müharibələrdən sonra mövcud durumu, şəhid və qazi ailələrinin sosial-psixoloji vəziyyəti önəmlidir. Bu kimi çağırışların öhdəsindən, məhz sözün əsl mənasında, bütün parametrlərinə görə sosial dövlət kriteriyalarına cavab verən və siyasətində əsas amil vətəndaş olan dövlətlər gəlir. Xüsusilə, bu gün müstəqil Azərbaycanın dövlət başçısı İlham Əliyev İkinci Vətən Müharibəsi nəticəsində qaçqın və məcburi köçkünlərə, müharibədə şəhid və fiziki sağlamlığını itirən şəxslərin ailələrinə xüsusi diqqət və qayğı daimidir. Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin qeyd etdiyi kimi, 44 günlük Vətən Müharibəsinin əldə etdiyi bu böyük Qələbənin əsas qəhrəmanı Azərbaycan əsgəri və zabitidir. Müharibə zəfərlə başa çatandan sonra Ali Baş Komandanımızın ilk növbədə yaralı hərbçilərimizlə görüşməsi də Azərbaycan dünya miqyasında öz modelini ortaya qoyur. Çünki dünyada bir çox ölkələr müharibə şəraitində olublar. O ölkələrin təcrübəsini biz bilirik, öyrənirik. Görürük ki, Azərbaycanda şəhid ailələrinə, qazilərə və müharibədən əziyyət çəkmiş insanlara göstərilən diqqət doğrudan da nümunəvi sayıla bilər. Çünki elə təşəbbüslər irəli sürülür ki, başqa ölkələrdə biz buna rast gəlmirik. Misal üçün, şəhid ailələrinə, müharibə əlillərinə dövlət tərəfindən mənzillərin verilməsi. Bu, bizim təşəbbüsümüz idi. Bu günə qədər bu kateqoriyadan olan 10 minə yaxın insan mənzillərlə təmin edilib.

Minik avtomobilləri verilir, 7400 avtomobil verilib. Növbədə duranlar, yeni Birinci Qarabağ müharibəsinin iştirakçıları və qaziləri artıq yaxın gələcəkdə tam təmin ediləcəklər. Təkcə keçən il Birinci Qarabağ müharibəsi şəhidlərinin ailələri və qaziləri evlərlə təmin edilib. Onlardan 850 nəfəri mənzillərlə təmin edilib, İkinci Qarabağ

şəxs mənzil və ya fərdi evlərlə təmin edilib.

Mənzillərin təxminən 3500-ü postmüharibə dövründə verilib. Eyni zamanda, qazilərin sağlamlığının qorunması, onların müasir protezlərlə təminatı, reabilitasiya kurslarını keçməsi üçün də mühüm addımlar atılır.Ölkənin iqtisadi gücü artdıqca bu kate-

doğurur. Şəhidlər Vətən uğrunda canlarını fəda ediblərsə, onların adına verilmiş küçə adları da dəb xatirinə bir-birindən yüksək olmamalıdır. Çünki dövlət belə şəxslərə daim böyük diqqətlə yanaşır. Həmin kateqoriyadan olanların həyatının normallaşdırılması qəbul olunan bir sıra qərarlar, fərman







onlara yüksək hörmət və ehtiramın, qayğının nümunəsidir. Və bu gün torpaqları işğal olunmuş bir ölkənin ərazi bütövlüyünü qoruyanlar və haqq savaşını verənlər hərbçilər, qazilər və şəhid ailələri Azərbaycan dövlətinin hər zaman xüsusi diqqət və qayğısı altındadır.

## İMZALANAN MÜVAFİQ FƏRMAN VƏ SƏRƏNCAMLAR DÖVLƏTİN ŞƏHİD AİLƏLƏRİ VƏ QAZİLƏRƏ QAYĞISININ GÖSTƏRİCİSİDİR

Prezident İlham Əliyev tərəfindən bu istiqamətdə imzalanan fərman və sərəncamlar, Birinci vitse-prezident Mehriban xanım Əliyevanın şəhid ailələrinə və müharibə əlillərinə mərhəməti, qayğısı çoxsaylı ailələrə böyük sevinc bəxş etməklə yanaşı, təqdirəlayiq hal kimi qiymətləndirilir. Bu gün şəhid ailələrinə, müharibə əlillərinə və veteranlarına göstərilən hərtərəfli qayğı nümunəvi xarakter daşıyır. Şəhid ailələrinin, müharibə əlillərinin, veteranlarının sosial ehtiyaclarının dövlət tərəfindən ödənilməsi, həmçinin Vətən uğrunda öz canından keçmiş şəhidlərin və Qarabağ müharibəsi əlillərinin övladlarının təhsil haqqından azad edilməsi, eyni zamanda, bu insanların mənzil və avtomobillərlə təmin olunması da təqdirəlayiqdir.Qazi və şəhid ailələri haqqında danışarkən, əlbəttə ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 8 dekabr 2020-ci il tarixində "Azərbaycan Respublikasının ərazi bütövlüyünün müdafiəsi ilə əlaqədar yaralananların və şəhid ailələrinin təminatına dəstək fondunun yaradılması haqqında" fərmanı ilə "YAŞAT" Fondunun təsis edilməsinə də diqqət yetirmək lazımdır.Dövlət başçısı müsahibələrində, görüşlərində şəhid ailələri və müharibə veteranlarına diqqət və qayğısı Azərbaycanda tam fərqli formada olduğunu vurğulayaraq bildirmişdir ki, bunu başqa ölkələrlə müqayisədə aydın görmək olur, çünki bizdəki yanaşma çox spesifik formadadır. Şəhid ailələri, müharibə veteranlarına dövlətin maddi dəstəyi ilə yanaşı mənəvi dəstəyi də ən yüksək səviyyədədir: "Mən bütövlükdə deyə bilərəm ki, bu sahədə müharibəsinin iştirakçıları, yeni qaziləri və şəhid ailələri, onlara da 750 mənzil verilib, bu proses davam etdirilir. Hesab edirəm ki, Birinci Qarabağ müharibəsində iştirak etmiş bu kateqoriyadan olan insanlara bəlkə də iki il ərzində, tam, yeni növbədə duranlara mənzillər veriləcək. İkinci Qarabağ müharibəsində, həmçinin yaxın bir neçə il ərzində bu şərait yaradılacaq".Göründüyü kimi, şəhid ailələrinin, müharibə əlillərinin problemlərinin həlli, onların mənzil-məişət şəraitinin yaxşılaşdırılması Azərbaycanda dövlət siyasətinin mühüm tərkib hissəsi olaraq 2018-ci ildə 626, 2019-cu ildə 934, 2020-ci ildə 1572 mənzil və fərdi ev şəhid ailələri və müharibə əlillərinə təqdim edilib. Dövlətimizin başçısının 2021-ci il 25 yanvar tarixli Sərəncamı ilə bu kateqoriyalardan olanlara 2021-2025-ci illərdə 11 min mənzil və ya fərdi evin verilməsinin nəzərdə tutulması proqramın daha da genişlənməsinə imkan verdi. Bunun nəticəsi olaraq, 2021-ci ildə üç il əvvələ nisbətən 5 dəfə çox olmaqla 3 min mənzil şəhid ailələrinə və müharibə əlillərinə verilməsi proqramı icra olundu. Beləliklə, ümumilikdə ötən dövrdə 12300 şəhid ailəsi və müharibə əlili mənzil və fərdi evlə təmin edilib. Eyni zamanda, müharibə əlillərinin avtomobillə təminatı tədbirləri uğurla davam edir. 2021-ci ildə daha 164 nəfər müharibə əlili minik avtomobili ilə təmin edilib və bu günədək 7400 müharibə əlilinə avtomobil verilib. Zəfərlə başa vurduğumuz 44 günlük Vətən müharibəsindən sonra - postmüharibə dövründə şəhid ailələrinin, müharibə əlillərinin təqaüdlərində ciddi, orta hesabla 60 faiz artımlar edildi, yeni təqaüd növləri təsis olundu. Əməkhaqqında ciddi artımlara uyğun olaraq 2020-ci ilin əvvəlindən pensiyalar indeksləşdirilərək 16,6 faiz, 2021-ci ilin əvvəlindən 11,4 faiz artırıldı və bu artımlar 1 milyon 100 min pensiyaçını əhatə etdi.Prezident İlham Əliyevin müvafiq Sərəncamı ilə 2021-2025-ci illər ərzində şəhid ailələri, müharibə əlilləri və digər həssas qrupa aid olan insanların mənzillə tam təminatının həyata keçirilməsi üçün Dövlət Proqramı təsdiqlənib. Nəticədə bu günə kimi bu kateqoriyaya aid olan 13 mindən çox

qoriyadan olan şəxslərə ödənilən müavinətlərin, sosial ödənişlərin də məbləği artırılır. Bununla bağlı, dövlət başçısı tərəfindən son illər ərzində bir neçə dəfə müvafiq sərəncamlar imzalanıb. Prezident İlham Əliyevin imzaladığı həmin sərəncamlara əsasən, şəhid ailələrinə, qazilərə və əhalinin digər həssas qruplarına aid insanlara verilən təqaüdlərin həcmi artırılıb.Prezident İlham Əliyevin yeni fərman və sərəncamları ilə son beş ildə ölkəmizdə artıq dördüncü sosial islahat paketinin reallaşdırılmasına başlanılıb. İslahat paketinə əsasən, əməkhaqqı, müavinət və təqaüdlərin növbəti dəfə artırılması təmin olunur. Şəhid ailəsi üçün Prezident təqaüdünün məbləğinin artırılması və "Şəhid ailəsi üçün Azərbaycan Respublikası Prezidentinin təqaüdü"nün təsis edilməsi haqqında" Fərmanda da dəyişiklik edilib. Sənədə əsasən şəhid ailəsi üçün Azərbaycan Prezidentinin təqaüdünün aylıq məbləği 2023-cü il yanvarın 1-dən 600 manat müəyyən edilib. Belə ki, bu məbləğ 500 manatdan 600 manata qaldırılıb.

## QAZİ VƏ ŞƏHİD AİLƏSİ ADINDAN SUİ-İSTİFADƏ HALLARINA NİFRƏTLƏ YANAŞIRLAR

Xüsusilə son vaxtlar özlərini "xalq qayğısı" cildində olan simasızlar qazi və şəhid adından istifadə edirlər. Ancaq Azərbaycan xalqı tükü-tükdən seçən həssas xalqdır və açıq fikirli və hər kəsi öz simasında tanımağı bacarır. Əl-ayağını itirən, dünyaya baxan gözünü itirən, psixoloji travmalar alan vətən oğullarımız heç zaman bu cür hay-küyə qoşulmaz və dövlətin mənafeyin hər şeydən üstün tuturlar. Üzdəniraq insanların addımlarına sosial şəbəkələrdə təsadüf etdikdə, təəssüflənirik ki, Vətənə can fəda edən oğullarımızın adına kölgə salmaq niyyətində olan insanlar kimlərinsə sifarişlərini yerinə yetirirlər. Belə dələduzlar hətta məscidlərin, ziyarətgahların ətrafında sui-istifadə halların yol verirlər. Xüsusilə də, bəzən mübahisələr olur ki, mənə dəbdəbəli ev tikdirməlisən və ya qəbirüstü abidə bahalı olmalı, başqalarınkından seçilməlidir. Bu, cəmiyyətdə qıcıq

və sərəncamlar deyilənlərin göstəricisidir. Dövlət həmin kateqoriyalı insanlara qayğı ilə yanaşır. Və bu gün qazilər çirkin məqsədlərini həyata keçirmək üçün istifadə edənlərə qarşı bir olmalıdırlar, imkan verməməlidirlər ki, həmin çirkin qüvvələr onların qazi adına ləkə vursunlar.Bəli, bu gün Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə bütün sahələr üzrə demokratik, şəffaf islahatlar siyasətini dönmədən həyata keçirməkdədir. Bir sözlə, bütün bunlar onu göstərir ki, şəhid ailələrinə və qazilərə qayğı göstərmək dövlətin prioritet vəzifəsidir və Azərbaycan Prezidenti və Birinci vitse-prezident Mehriban xanım Əliyeva qayğıya ehtiyacı olan insanların, xüsusilə ölkəmizin ərazi bütövlüyü uğrunda şəhid olmuş insanların ailələrinin, əlillərin sosial məsələlərinin həllini xüsusi diqqət mərkəzində saxlayır və bundan sonra da saxlayacaq.

Dövlət başçımız bunu son 20 illik Prezidentlik fəaliyyəti müddətində aydın şəkildə göstərib: "Bildirmək istəyirəm ki, Azərbaycan dövləti və mən Prezident kimi hər zaman sizin yanınızda olacağam",- deyən Azərbaycan Prezidenti, hər kəsin, o cümlədən şəhid ailələrinə diqqət və qayğının ən bariz nümunəsini son 20 ildə göstərib və bundan sonra da göstərəcəyinə Azərbaycan xalqı inanır və şahidlik edir. Çünki bu sadalananlar bir daha onu göstərir ki, Azərbaycan dövləti bütün kateqoriyalardan olan vətəndaşlarına daim qayğı və həssaslıqla yanaşır və onların sosial rifahının yüksək olması istiqamətində mühüm işlər reallaşdırır. Çünki Azərbaycan Prezidenti İlham Əliyev atdığı addımlar və verdiyi qərarlarla sübut etdi ki, Onun siyasətinin mərkəzində Azərbaycan vətəndaşı dayanır. Bu ölkədə görülən bütün işlər isə yalnız vətəndaşlarımızın və dövlətimizin ali mənafeyinə xidmət edir. Ancaq bu addan sui-istifadə halları isə şəhidin adına, ruhuna hörmətsizlik etməklə, bu böyük ada ləkə yaxanlar bilməlidirlər ki, Vətənə sevgi təmənnalı olmur.

**RƏFİQƏ HÜSEYNOVA**

# Alman ekspert: "Qərb Qafqazda "2-ci Ukrayna" yaratmağa cəhd edir"

*"Paşinyanın Qərb kuratorlarının vəzifəsi Cənubi Qafqazda növbəti münaqişəni alovlandırmaqdır"*

***Moskva ilə İrəvan arasında münasibətlər tam pozulmaq təhlükəsi ilə daha da pisləşməkdə davam edir. Son günlərin bunu təsdiq edən bir neçə sübutunu təqdim edirik. Ermənistanın baş naziri Nikol Paşinyan AİI və MDB-nin Bişkekdəki hökumətlərarası şuralarına getməyəcək, tədbirlərdə respublikanı baş nazirin müavini Mxer Qriqoryan təmsil edəcək. Bu barədə RİA Novosti-yə Qırğızıstan Nazirlər Kabinetinin mətbuat xidmətindən məlumat verilib.***

Daha sonra Ermənistanın müvəqqəti işlər vəkilinin Rusiya Xarici İşlər Nazirliyinə çağırıldığı məlum olub. Bu barədə Rusiya Xarici İşlər Nazirliyinin rəsmi nümayəndəsi Mariya Zaxarova brifinqdə bildirib. Onun sözlərinə görə, erməni diplomata "respublikanın informasiya məkanında davam edən cilovsuz anti-Rusiya kampaniyasının qəbuledilməzliyi" qeyd olunub. Moskvanın artan narazılığının daha bir sübutu Zaxarovanın aşağıdakı bəyanatı oldu- Ermənistanda Avropa İttifaqının müşahidəçi missiyası monitorinq adı altında Rusiyaya qarşı kəşfiyyat məlumatları toplayır.

"Biz görürük ki, Qərb mediası rəsmi İrəvanın nümayəndələrinə sözün əsl mənasında necə hücum edir, onlardan təxribatçı suallara cavablar alır. Biz görürük ki, bu məsələlər Moskva ilə İrəvan arasında çoxşaxəli əlaqələrə maksimum ziyan vurmaq məqsədi daşıyır. Təəssüf ki, indiki erməni reallıqlarında belə qızışdırmalar öz işini görür", - deyə M.Zaxarova bildirib. Bir sözlə, hər şey harasa



gedir və bunun Moskva və İrəvan üçün necə bitəcəyini bu gün söyləmək çox çətindir. Xarici analitiklərə bu vəziyyətin gələcək inkişafı ilə bağlı proqnozlarını "Caliber" analitik mərkəzinə açıqlayıblar. Ekspertlərin fikirlərini oxucularımıza təqdim edirik.

Almaniyalı siyasətçi, Bundestaqın keçmiş deputatı Valdemar Gerdt Paşinyanın özünün qərbyönlü qüvvələrin layihəsi olduğunu unutmamağı lazım bilir.

"O, hakimiyyətə gələndə sistemli şəkildə Rusiya ilə əlaqələri kəsməyə çalışırdı. Bu münasibətləri inkişaf etdirmək, öz suverenliyini möhkəmləndirmək əvəzinə, suveren dövlət hüququ adı ilə tədbirlər görüldü ki, Ermənistanın qərbyönlü inkişaf vektorunun indi prioritet olduğunu Moskvaya və bütün dünyaya, o cümlədən Azərbaycana açıq şəkildə göstərdi"- Gerdt qeyd edib.

Digər tərəfdən ekspert deyir ki, Paşinyan özü Azərbaycanın ərazi bütövlüyünü tanıyıb.

"Rusiyanın bununla heç bir əlaqəsi yoxdur. Bu, onun qərarı idi, səsləndi və bunun nəticəsində bütün sonrakı hərəkətlər oldu. Rusiya sülhməramlılarının vəzifəsi yalnız Paşinyanın özünün də bəyəndiyi bu prosesin daha ağrısız, qan tökülmədən, sadə sakinlər üçün kədər və bədbəxtlik olmadan keçməsini təmin etməkdən ibarət idi. Ermənistanın davamlı olaraq Rusiyanın kifayət qədər iş görmədiyi və ya ən azı vicdanlı



olmadığına dair iddialar bir növ axmaqlıqdır, çünki Rusiya Federasiyası, ümumiyyətlə, bu regionu münaqişədən saxlamaq üçün hər şeyi edib.

Paşinyanı öz yerinə qoyan kuratorların vəzifəsi isə Qafqazda daha bir münaqişə ocağını alovlandırmaqdır. Ukrayna ilə etdiklərini indi Ermənistanla da etməyə çalışırlar- eyni naxışlarla, eyni şüarlarla, eyni parollarla. Burada Qafqaz xalqları müdriklik nümayiş etdirməli və özlərinin xaricdəki Sem dayılarının başladığı bu oyuna cəlb olunmasına imkan verməməlidirlər. Ümid edirəm ki, onlar bunun üçün kifayət qədər anlayışa malikdirlər, çünki onların gözləri önündə artıq kifayət qədər nümunələr var- Yaxın Şərqə baxın, oradakı bütün ölkələrə nə etdilər, Ukrayna münaqişəsinə baxın və başqsa hər şeyə baxın. Mən həqiqətən ümid edirəm ki, Qafqazda vəziyyət sakitləşəcək. Qərarlar qəbul edilib, onlara hörmət edilməli və həyata keçirilməlidir və silahlı münaqişənin qızışdırılması arzusu ilə xaricdəki kuratorların bütün bu təxribatçı hücumlarına boyun əyməmək lazımdır",- alman siyasətçi bildirib.

Siyasi ekspert, tarix elmləri doktoru, Qırğızıstan-Rusiya Slavyan Universitetinin (Bişkek) professoru Əsgər Cakişev öz növbəsində qeyd edib ki, son üç onillikdə Qarabağ Ermənistan üçün "qulpsuz çamadan" olub: onu daşımaq çətindir, lakin onu atmaq da olmurdu.

"Biz Azərbaycanın qüdrətli ordusuna təkbaşına müqavimət göstərməyin mümkünsüzlüyünü əsas götürərək Qarabağı



Ermənistanın nəzarətində saxlamamaq barədə ağlabatan qərar qəbul edən Paşinyana hörmətlə yanaşmalıyıq. Qarabağ uğrunda Azərbaycanla vuruşmaq ideyası sonuncu erməniyə qədər heç kimi ruhlandırmırdı. KTMT çərçivəsində dəfələrlə rus hərbçilərinin arxasında gizlənmək cəhdləri nəticə vermədi, buna görə də Rusiya rəhbərliyi və KTMT razılaşmaları yerinə yetirmədiklərinə görə tənqid olunur",- professor qeyd edib.

Alim hesab edir ki, bura həm də Paşinyanın Qarabağın itirilməsinə görə məsuliyyəti Rusiya Federasiyasi ilə bölüşmək istəyi, daha doğrusu bütün günahı onun üzərinə atmaq da daxildir.

"Rusların Ermənistanın maraqları naminə özlərini qurban verməyə hazır olmadıqlarına əmin olan İrəvan yeni böyük qardaş axtarışında kollektiv Qərbə üz tutdu, gərginlik ocağı yaratmaqda mahir olan və bölgədə öz geosiyasi maraqlarına malik Qərbin Rusiyanın cənub sərhədləri altına Ermənistanın çiynini verməyə hazır olduğunu bildirdi", - Cakişev yekunlaşdırıb.

***Tərcümə - Elçin Bayramlı***

# "Xalqımız bu zəfəri heç vaxt unutmayacaq"

***"Torpaqlarımız işğal olunduqdan sonra istər Ulu Öndərin, istərsə də Prezident İlham Əliyevin dövründə atılan hər bir addım, qəbul olunmuş hər qərar itirilmiş torpaqlarımızın azad olunmasına istiqamətlənmişdi. Bu istiqamətdə məsələləri nə qədər sülh yolu ilə həll etməyə çalışsaq da, qarşı tərəf heç vaxt razılıq vermirdi. ATƏT-in Minsk Qrupunun həmsədr üzvləri 30 ilə yaxın bir müddət ərzində ikili yanaşmalarını açıq-aşkar göstərərək məsələni həll etmək istiqamətində addımlar atmadılar.***




Bunlara baxmayaraq Azərbaycan sülh yönümlü addımlar atmaqla yanaşı, ölkə iqtisadiyyatını gücləndirir və ordu quruculuğu ilə bağlı lazımi tədbirlər həyata keçirirdi. Gənclərimizin vətənpərvər ruhda tərbiyə alması, ordumuzda xidmət göstərən gənclərin döyüş qabiliyyətinin və psixoloji hazırlığının yüksək olması istiqamətində mütəmadi olaraq işlər aparıldı. Bu məsələlər yalnız sadaladıqlarımla bitməyib". Bu sözləri SİA-ya açıqlamasında Milli Məclisin deputatı Aqil Məmmədov deyib.

Onun sözlərinə görə, Azərbaycan xarici siyasətində də yenilik əldə edib: "Dövlətimiz fasiləsiz şəkildə beynəlxalq qurumlarla, dünya ölkələri ilə əlaqə saxlayaraq Azərbaycanın ərazi bütövlüyünün tanınması yönündə lazımi tədbirlər həyata keçirirdi. Bu kompleks yanaşma xalqda birliyin formalaşmasına, həmrəyliyin güclənməsinə təsir göstərib".

Deputat sözlərinə davam edərək bildirib ki, Ermənistan sülhə yaxın durmadığına və davamlı təxribatlar törətdiyinə görə Azərbaycan Prezidentinin əmri ilə "İrəli" komandası verildi: "Nəhayət, 2020-ci il 27 sentyabr tarixində torpaqlarımızın azad olunması istiqamətində addımlar atıldı. Şükürlər olsun ki, həmin 44 günün hər günü ordumuz üçün uğurlu oldu. Doğrudur, itkilərimiz də oldu. Bu da təbii haldır. 8 Noyabr tarixində zəfərimizin zirvəsi olaraq Şuşa şəhəri işğaldan azad edildi. Ali Baş Komandan gündəlik əldə olunan uğurlarımızı yüksək əhval-ruhiyyə ilə xalqa çatdırırdı. Müharibə dövründə xalqımız bir yumruq kimi birləşdi. Bu birlik sayəsində ordumuz öz yenilməzliyi ilə Azərbaycan hərb tarixində yeni bir səhifə açdı.

44 günlük Vətən müharibəsi dövründə 5 şəhər, 4 qəsəbə, 286 kənd işğaldan azad olundu. Bu müddət ərzində Ermənistan tərəfinin on minlərlə fərarisi oldu. Azərbaycan Ordusu isə 30 il ərzində Ermənistan tərəfindən qoyulan bəndləri qıraraq öz vəzifələrini yüksək səviyyədə yerinə yetirdi. Bundan xoflanan Ermənistan 10 noyabr tarixində Rusiya Prezidenti və Azərbaycan dövlət başçısının iştirakı ilə birgə bəyanat imzaladı ki, müharibə dayandırılsın. Həmin bəyanatda bir çox maddələr var idi ki, qısa zaman kəsiyində həll edilməli idi. Həmin maddələrə əməl etməklə Ermənistan kapitulyasiya aktına imza atdı. Şuşanın azad olunduğu gün Prezidentin sərəncamı ilə "Zəfər günü" kimi qeyd olundu".

"Düzdü, biz indi son işğal dövründə danışırıq, amma Azərbaycan torpaqlarının işğalı 200 il bundan öncə başlayıb. Ermənilər Azərbaycan torpaqlarına yerləşdirildikləri gündən xalqımızı sıxışdırıb. Hətta SSRİ Nazirlər Kabinetinin qərarı ilə 1948-1956-cı illər ərzində yüz minlərlə azərbaycanlını öz dədə-baba yurdundan didərgin saldılar. Yəni, Azərbaycan xalqı hələ o dövrlərdən etibarən içində həsrət çəkirdi. Ali Baş Komandanın rəhbərliyi, ordumuzun gücü, şəhidlərimizin qanı, qazilərimizin şücaəti, xalqımızın birliyi hesabına torpaqlarımız işğaldan azad olundu və biz bunu yüksək qiymətləndiririk. Xalqımız bu zəfəri heç vaxt unutmayacaq",- deyə o əlavə edib.

***Ləman Sərraf***

# Qərbin Ermənistana “köməyi”, yoxsa...



**Sergey Markov: ”Qarabağ məsələsinin yekun həllindən sonra Azərbaycanın indi vasitəçilikdə vicdansızlıq edənlərə etirazını açıq nümayiş etdirmək imkanı var”**



Bir sıra Qərb dairələrinin postsovet məkanında maraqlarını təmin etmək üçün hərəkətə keçmək cəhdlərinin daha bir qurbanının Ermənistan olması artıq sirr deyil. Ermənistanın qərbyönlü iqtidarının isə verilən vədlərdən vəcdə gəlməsi ona baha başa gələ bilər. Daha dəqiq desək, yerləşdiyi coğrafi məkanından on minlərlə km. uzaqlardan Ermənistana hər hansı təcili köməyin olması qeyri-səmimi görünür. Düzdür, Paris İrəvanı silahlandıra bilər, ABŞ-dakı, Kanadadakı və s. ölkələrdəki ermənipərəst qüvvələr də müəyyən yardımlar göstərmək üçün hərəkətə keçə bilərlər, amma bu, Ermənistanın xilası ola bilməz. Ermənistanın taleyinə Qərb deyil, yerləşdiyi coğrafi və siyasi məkan yazılıb. Əbəs deyil ki, regional vəziyyətini dərk etməyən İrəvanın özünü daha çətin vəziyyətə doğru sürükləməsini tanınmış politoloqlar da şərh edirlər.

### Politoloq: ”Qərb tərəfdaşları İrəvana səslənir: “Rusiyanı tərk edin, onunla münasibətləri kəsin, biz sizə kömək edəcəyik!”

”Qərb Ermənistana kömək etməyəcək. Lazım olanı götürüb atacaq. Ermənistan Qərbdən uzaqda yerləşən kiçik, kasıb respublikadır. Onun Azərbaycan kimi nefti yoxdur, Azərbaycan və Gürcüstan kimi dənizə çıxışı da yoxdur”. Bu fikirləri rusiyalı politoloq Sergey Markov deyib.

Politoloqun sözlərinə görə, Qərb Ermənistanda öz yerini tutmağa çalışır, o cümlədən təhlükəsizlik baxımından və bundan artığı görünmür: ”Qərb tərəfdaşları İrəvana səslənir: “Rusiyanı tərk edin, onunla münasibətləri kəsin, biz sizə kömək edəcəyik!” Kömək etməyəcəklər. Bu ay AB-nin vasitəçiliyi ilə Azərbaycan və Ermənistan liderləri arasında iki dəfə görüşün keçirilməli olduğu və hər ikisinin baş tutmaması Bakının artıq Avropanın vasitəçi kimi məşğul olmaq istəmədiyini göstərir. Qarabağ məsələsinin yekun həllindən sonra Azərbaycanın indi vasitəçilikdə vicdansızlıq edənlərə etirazını açıq nümayiş etdirmək imkanı var - bu qədər, bitdi”.

### “Bakı artıq buna dözmək fikrində deyil”

Markov Bakının bəzi Qərb dairələrinə yerlərini göstərdiyini, bundan sonra da göstərəcəyini ifadə edib. ”AB həm struktur olaraq, həm də ona daxil olan ölkələr səviyyəsində ört-basdır edib, oynamaq cəhdlərinə baxmayaraq, müntəzəm olaraq Azərbaycanı bir növ qınadığını nümayiş etdirir. Bakı artıq buna dözmək fikrində deyil”, - rusiyalı politoloq bildirib. Beləliklə, Azərbaycan hərbi, siyasi və diplomatik cəbhələrdə qarşısına çıxan istənilən antiqüvvəyə şans buraxmır və artıq regionun güclü dövləti qismində öz qətiyyətli mövqeyini ortaya qoyur. Ermənistan isə nəinki yerində saymağa, həm də geriyə doğru böyük addımlarla getməyi tərcih edir. Necə deyərlər, bu, onların öz seçimləridir...

*Afət Tahirqızı*



RƏFİQƏ

# Uğurlarımıza qara eynəkdən baxanlar

***Həyatda şərəflə şərəfsizliyi, şəxsi rifahla ictimai borcu, tamahkarlıqla vicdanlılığı hər kəs özü seçir. Bir əsas məqamı da qeyd etməliyik ki, vətəndaşlıq təəssübkeşliyi olmayan kəsdən mənəviyyat, dövlətə, xalqa xidmət gözləmək sadəlövhlük olar. Beləsləri üçün dövlət maraqları şəxsi ambisiyalarının arxasında dayanır, xarici anti-Azərbaycan qüvvələrin əlində oyuncaq olmaq adi qəbul edilir, bir sözlə, vicdan deyilən məfhum yoxa çevrilir. Bu təqdimata əsaslansaq, özünü hüquq müdafiəçisi kimi təqdim edib, Demokratiyanın Müdafiəsinə Dəstək İctimai Birliyinə sədrlik edən, hazırda isə Fransada oturub ölkəmizin əleyhinə təbliğat aparan Vidadi İsgəndərli kimilərin geniş təhlilini verməyə ehtiyac yoxdur.***

Fransız psixoloq Julyer iddia edir ki, insanlarda satqınçılıq və xəyanət simptomları bir dəfə formalaşırsa, bu sistemli şəkildə davamlı olur və ətraf mühitə ikrah yaranır. Və bu gün Azərbaycanın uğurlarına qara eynəkdən baxan, ölkə Prezidentinin, dövlət məmurlarının ünvanına reallıqdan uzaq fikirlər səsləndirən, şərəf və ləyaqətin nə olduğunu anlamaq imkanında olmayan bu “hüquq müdafiəçisi”nin “Azərbaycan Prezidenti Qarabağda müharibə elan etsə, həmin silahı ermənilərə qarşı yox, Azərbaycan hakimiyyətinə qarşı istifadə edəcəyəm” fikrinə münasibət bildirməmək mümkünsüzdür. Şəxsi ambisiyasının quluna çevrilən bu məxluq açıq-aşkar ermənilərə dəstəyini, onları necə müdafiə etdiyinə aydınlıq gətirir. “Hüquq müdafiəçisi” anlayışının mahiyyətini dərk etməyən bir şəxsin hansısa hüquq təşkilatına rəhbərlik etməsi gülünc deyilmi? Nə üçün onu ermənilərin əsassız torpaq iddiasına əsasən yaranan Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi nəticəsində öz doğma yurd-yuvasından didərgin düşmüş soydaşlarımızın pozulmuş hüquqları narahat etmir? Nə üçün onun sırasında addımlayan, dövlət maraqlarına öz şəxsi maraqlarına qurban verən “hüquq müdafiəçiləri” Xocalı hadisəsinin işıq saldığı erməni vəhşiliklərinə göz yumur, laqeyd yanaşırlar?

Fransada oturub ölkənin əleyhinə ictimai fikirdə ikrah doğuran fikirlər səsləndirməkdən, ermənilərə dəstək göstərməkdənsə, vətəndaşlıq təəssübkeşliyindən çıxış edib, dünyaya səs salan Xocalı hadisəsinin soyqırımı kimi tanıdılmasına töhfə vermək yaxşı olmazmı? Ermənilər dünya ölkələrini gəzə-gəzə reallıqdan uzaq, yazdıqları saxta tarixə uyğun olaraq qondarma “erməni soyqırımı”nı həqiqət kimi qəbul etdirmək üçün dəridən-qabıqdan çıxırlar. Onlara vidadi isgəndərlilər bir alət kimi gərəkdir. Təbii ki, Vətəninə, xalqına xəyanət yolunu tutan belələrinə nəinki ölkədə, dünyada belə müsbət düşüncə ilə yanaşmaq qeyri-mümkündür. Baxmayaraq ki, vidadilər üçün bu normal yanaşmadır.

Bu açıqlaması ilə kimliyinə bir daha aydınlıq gətirən Vidadi İsgəndərli açıq-aşkar Azərbaycan hakimiyyətinin ölkəmizin davamlı inkişafına xidmət edən siyasətinə qərəzli yanaşdığını qabarıq şəkildə büruzə verir. Bu gün Azərbaycan inkişafın ən yüksək səviyyəsindədir. İqtisadi tərəqqi güclü sosial siyasətlə tamamlanaraq, davamlı addımlara yol açır. Dövlətimizin başçısı İlham Əliyevin hər bir təşəbbüsü xalq tərəfindən dəstəklənir, yüksək əhval-ruhiyyəyə yol açır. Bu gün ölkəmizdə xalq-iqtidar birliyinin ən yüksək səviyyədə olduğu göz önündədir. Ölkəmizdə sabitliyin təminatçısı kimi çıxış edən bu birlik, eyni zamanda, davamlı inkişafı şərtləndirir. Yeganə problemimiz yalnız və yalnız Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsidir ki, xalqımız dövlətimizin uğurla daxili və xarici siyasəti nəticəsində bu problemimizin də öz müsbət həllini tapacağına, vətəndaşlarımızın pozulmuş hüquqlarının bərpa olunacağına, doğma yurd-yuvalarına qayıdacaqlarına əmindir. 2016-cı ilin aprel, ötən ilin Naxçıvan qələbələri, həmçinin hərbi qüdrətimizin günbəgün artması bu əminliyə əsas verir. Hücum diplomatiyasını uğurla həyata keçirən dövlətimizin xarici siyasətinin uğurları göz önündədir. Bu gün dünya ermənilərin əsl simasını görməklə yanaşı, qərar və qətnamələrində Azərbaycanın mövqeyini dəstəkləyir. Rəsmi Bakı ən yüksək tribunalardan bəyan edir ki, bir qarış torpağımız belə düşmənə verilməyəcək. Ən əsası diplomatik uğurlarımız, güclü və qüdrətli ordumuz münaqişənin tezliklə öz ədalətli həllini tapacağına inamı daha da artırır.

Görünür uğurlarımızın fonunda Ermənistanın nəzərə çarpan zəifliyi ermənipərəst qüvvələrin əlində oyuncaq funksiyasını yerinə yetirən vidadiləri narahat etdiyindən belə ikrah doğuran, özünü aşağılayan, ictimai qınağı artıran fikirlərlə çıxış etməyi özünə borc bilməsinə səbəb olur. Amma unudur ki, bu açıqlaması onun daha çox terrorçu olması ilə bağlı şübhələrin yaranmasına yol açır. Hər bir açıqlaması ilə mənəviyyatsızlığını, şərəfsizliyini daha qabarıq şəkildə büruzə verən “hüquq müdafiəçisi” ünvanına deyilən “Hər bir insan mübarizəsini kişi kimi aparmalıdır” tezisindən nəticə çıxarmırsa, bu artıq onun şərəfsizlik xəstəliyindən qaynaqlanır.



FELYETON

# Adın nədir?..

-Ay, nə qəşəng qızdır bu, adı nədir?

-Kumsaldeniz.

-Allah saxlasın.

***

-Bu gözəl qızın adı nədir?

-Medina.

-Maşallah.

***

-Nə şirin əkizlərdi bunlar, adları nədir?

-Manisa, Peykər.

- Allah xoşbəxt etsin.

***

-Bu nə gözəl oğlandı, adı nədir?

-Dominik.

-Allah qorusun.

***

-Allah saxlasın, nə şirin oğlunuz var, adı nədir?

-Ronald.

-Adı ilə böyüsün.

***

-Hüqo, Alfanso, qaçmayın, yıxılarsınız.

-Bağışlayın, Allah saxlasın, nə gözəl uşaqlarınız var.

-Çox sağ olun.

-Adlarını necə dediniz?

-Hüqo, Alfanso.

-Maşallah.

***

-Seva, Cana, yanıma gəlin, çox aralanmayın.

-Maşallah, nə gözəl qızlardır bunlar.

-Çox sağ olun.

-Əsl adları nədir?

- Elə Seva, Canadır da.

-Hə, anladım, adları ilə böyüsünlər.

***

-Ay, maşallah, nə gözəl övladlarınız var. Allah saxlasın. Əkizdirlər?

-Çox sağ olun, Amin, yox birbirindən bir yaş fərqləri var.

-İkisi də oğlandır?

-Yox, Barbare qızdır, oğlan Stefanedir.

-Eləmi? Maşallah.

***

-Oğlum, Samuel, buraya gəl.

-Maşallah, böyük oğlan olsun.

-Çox sağ olun.

-Adını kim qoyub?

-Babası...

***

Eşitmişdim ki, yer öz oxu ətrafında fırlanır. Bir anlığa mənə elə gəldi ki, elə indicə fırlanıb, məni hansısa başqa ölkəyə apardı? Bu vaxt yanımdan bir cavan qız keçirdi, onu saxlayıb soruşmaq istəyirdim ki, ay qızım, bura haradır, o tərəfdən bir ana “Aziz, Aminə, Məhdi, uzağa getməyin”,- dedi. Bunu eşitcək, dedim, yox, heç hara getməmişəm, Azərbaycandayam...

*Mətanət Məmmədova*



Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "Uşaq və gənclərin fiziki və mənəvi inkişafı" istiqaməti çərçivəsində hazırlanıb.*

# Çips yedin ya zəhər, fərqi yoxdur

ARAŞDIRMA

***Bir çox insan üçün çipslərdən imtina etmək, demək olar ki, mümkün deyil. Əksəriyyət, çipslərin yağ, karbohidrat, natrium və təbii ki, kalorilərlə zəngin olduğunu bilir, amma onu qida rasionundan çıxara bilmir.***

### Dərinizi qocaldır

Demək olar ki, hər kəsin ləzzətli hesab etdiyi çipsilər ən zərərli qəlyanaltılar arasında yer alır. Çipsi yemək sizə kökəlməyə başa gələcək, xolestron və xərçənglə mükafatlandıracaq, dəridən dırnağadək bir çox əzanıza zərər verəcək. Çünki çipsilərin tərkibində çox miqdarda yağ, duz və çoxlu zərərli karbohidratlar var.

Orqanizm istehlak edilən artıq duzu neytrallaşdırmağa və aradan qaldırmağa çalışarkən o dərideki hüceyrələrdən daha çox maye çəkir. Nəticədə maye çatışmazlığı səbəbindən dəriniz daha quru olur. Yağda qızardıldığı üçün çipsilər qocalma prosesini sürətləndirən və dərinin elastikliyini zəiflədən sərbəst radikallar buraxırlar. Bir çox işlənmiş qidalar kimi, kartof çipsilərində də diabet, insult və ürək-damar problemləri ilə əlaqəli trans yağlar var. Bu qeyri-sağlam yağlar dərinizi günəşin ultrabənövşəyi şüalarının zərərinə qarşı daha həssas edir.



### Yeyirsinizsə artıq xəstələnmisiniz

Əgər çips yeməyi sevirsinizsə və hər gün yeyirsinizsə, həyatınız boyu qorxulu xəstəliklərə düçar olacağınıza zəmanət verilir. Saysız-hesabsız araşdırmalar nəticəsində alimlər, müntəzəm olaraq çipsi yeməyin yeddi təhlükəsini sübut ediblər. Çoxsaylı xəstəliklərə, xüsusilə demans və ya ürək problemlərinə səbəb olan kartof çipsləri həmçinin yüksək təzyiqə səbəb olur. Əgər çipsi yeməyi sevirsinizsə, bu sizə hər porsiyada olan yüksək natrium səviyyəsi sayəsində hipertoniya, yəni yüksək qan təzyiqi ilə yaşamağınız hesabına başa gələcək. Klivlend Klinikası və Harvard Tibb Məktəbinin məlumatına görə, bu qəlyanaltılarda olan duz, digər qida məhsulları ilə müqayisədə natrium səviyyənizə böyük ölçüdə təsir edir.

Amerika Xərçəng Cəmiyyətinin məlumatına görə, işlənmiş qidalarda olan "akrilamid" adlı kimyəvi maddə kanserogen xüsusiyyətlərə malikdir və müxtəlif xərçəng növlərinə səbəb ola bilər. Çipsilərin tərkibində çoxlu xolesterin var və bu ciddi insult təhlükəsi yaradır. Sinqapur Milli Universitetinin məlumatına görə, çipsi sonsuzluğa səbəb olur. Harvard Tibb Məktəbinin araşdırmalarına görə də trans yağlar qadınlarda sonsuzluq riskini artırır.

### Əsrin faciəsi-trans yağlar

Çipslərin zərərli təsirləri təkcə fiziki sağlamlıqla məhdudlaşmır, tərkibinə əlavə edilmiş yüksək miqdarda trans yağlar sayəsində psixoloji sağlamlığınızı da riskə atırsınız. ABŞ Milli Tibb Kitabxanasında dərc edilən 2016-cı il araşdırmasına görə, trans yağların artan istehlakı depressiya şansının artmasına səbəb olur. Bundan əlavə, trans yağlar sonsuzluq, qaraciyər xəstəlikləri, xərçəng, Alzheimer və Parkinson kimi xəstəliklərə səbəb olur.

Çipsilərin tərkibində çox miqdarda duz, karbohidrat və yağ olduğuna görə onu yemək yağ içməklə eyniləşdirilir. Duza qarşı kampaniyaya başlayan Ümumdünya Səhiyyə Təşkilatı gündəlik duz istehlakının 3 qramı keçəndə insult və infarkt riskinin iki dəfə artdığını bildirir. Hamilə qadınlar çipsi istehlak etdikdə, çipsin zərərli təsiri gələcək körpəyə də təsir edir. Körpələr ana bətnində olarkən də ciddi sağlamlıq problemləri ilə üzləşirlər.

Kartof qızartması və digər qızardılmış qidalarda bişmə temperaturu 120-dən çox olduqda, "akrilamid" adlı zərərli maddə əmələ gəlməyə başlayır. Mütəxəssislər həmçinin müəyyən ediblər ki, çipsilərin tərkibində kimya-plastik sənayesində istifadə edilən və siqaretin tərkibində xərçəngə səbəb olan təhlükəli kimyəvi maddə olan "akrilamid" var. Bu maddə uzun müddət istehlak edildikdə ateroskleroz, iltihablı xəstəliklər, piylənmə və xərçəng kimi xəstəliklərə səbəb olur. Çiplərin təhlükəli olmasının səbəblərindən biri də çipsilərin qızartma prosesində yüksək miqdarda yağ qəbul etməsi və buna görə də yüksək kalorili olmasıdır.

### İldə 9 kilo yağ!

Hər bir çips paketində 25-33 qram arasında yağ var. Ürək üçün son dərəcə zərərli olan yağın miqdarı 20 qramı keçməməlidir. Araşdırmalara görə, cipsi yeyən uşaqlar ildə təxminən 9 kq yağ yığırlar. Ümumdünya Səhiyyə Təşkilatı və Amerika Qida və Dərman Administrasiyasına görə, bir yetkin insan gündə cəmi 6 qram duz və 65 qram yağ istehlak etməlidir. Yəni gündə iki paket çipsi yeyən uşaq üçün bu rəqəmlər təhlükəli həddə çatır.

Azərbaycanda satılan kartof çipslərinin paket məlumatlandırılmasında neçə faiz doymuş yağ, neçə faiz trans yağ olduğu göstərilmir. Britaniya Ürək Fondunun məlumatlarına görə, 100 qram kartof çipsindəki doymuş yağ nisbəti 10 qrama qədər, trans yağ nisbəti isə 3 qrama qədər ola bilər. Bu zaman 100 qram cips qəbul edən uşaq böyüklərin istehlak etməli olduğu qədər yağ istehlak edir. Təəccüblü deyil ki, çipsilər çoxlu boş kalori ehtiva edir və bu da onu miqdarından daha çox istehlak etməyə imkan verir. Yəni, çipsidən doymaq mümkün deyil.

Eyni zamanda çipsilərin tərkibindəki yağlar ümumiyyətlə "aterosklerotik" yağlar olduğundan trans yağlar damarların tıxanmasına səbəb olur. Ürəyi qidalandıran damarlar yağlarla tıxandığı üçün ürək normadan çox işləyir və infarkt riskini 2 dəfə artırır. ABŞ-ın Kaliforniya Universitetinin çipsilər üzərində apardığı başqa bir araşdırmaya görə, doymuş yağ istehlakı 20 qramı keçdikdə, piylənmə riskinin 80%, ürək xəstəlikləri riskinin isə 60% artdığı müşahidə edilib.

### Tədqiqatlar acınacaqlı nəticələr açıqlayır

Yuxarıda qeyd etdiyimiz tədqiqat nəticələrinə görə, çipsilərin nə qədər zərərli olduğu daha yaxşı anlaşılır. Dünyanın ən böyük elmi-tədqiqat mərkəzlərinin, universitetlərinin araşdırması bu zərərin real olduğunu təsdiqləyir. Çiplərin zərərləri bunlarla məhdudlaşmır, onların insan sağlamlığına və orqanizminə zərərləri sırasına sağlam olmayan çəki artımı, yüksək natrium, yüksək qan şəkəri, mədə xəstəliklərini də əlavə etmək olar.

Kartof özü normal halda olduqca faydalı tərəvəzdir, tərkibində kalium və C vitamini var. Lakin trans yağlarda qızardılan kartof çipsilərin qida dəyəri qısa zamanda yox olur. Buna görə də qeyri-sağlam çəki artımına səbəb olur. Çipsilərdə yüksək miqdarda olan və Çin duzu kimi tanınan "monosodium" uşaqlarda çipsi asılılığına səbəb olur. Ən çox uşaqlarda rast gəlinsə də, böyüklərdə 2-ci tip şəkərli diabet, ürək-damar xəstəlikləri, yüksək təzyiq, piylənmə və daimi yuxululuğa da səbəb olur. Astma, epilepsiya tutmaları, yorğunluq, zəiflik, ağciyərlərdə sıxılma hissi və ürək döyüntüsü kimi nəticələrə səbəb ola bilər. Tərkibindəki yüksək natrium səbəbiylə qan təzyiqi, insult, ürək çatışmazlığı, koroner ürək xəstəliyi və böyrək xəstəliklərinə də səbəb olur.

Çips kimi yağlı, duzlu və işlənmiş qəlyanaltılar insanlarda mədə xəstəliklərinə də səbəb olur.



Yüksək yağlı qida olduğu üçün mədə turşusunun ifrazını artıra bilər ki, bu da mədə yanması və ya qastritə səbəb ola bilər. Çipsilərdəki yüksək duz tərkibi natrium istehlakını artıra bilər. Həddindən artıq duz istehlakı bəzi insanlarda mədə şişməsi, su toplama və yüksək təzyiq kimi problemlərə səbəb ola bilər. Çipsilərin tərkibində işlənmiş taxıllar, süni dadlandırıcılar, rəngləndiricilər və konservantlar kimi bir sıra əlavələr olur. Bu əlavələr həzm problemlərinə və mədə narahatlığına səbəb ola bilər. Bəzi çipsilər buğda, arpa və ya çovdar kimi taxıllardan hazırlana bilər. Amma bu halda da qlüten dözümsüzlüyü və ya çölyak xəstəliyi olan insanlar üçün qlüten istehlakı mədə narahatlığına, şişkinliyə, qaz problemlərinə və ishala səbəb olur.

Hər kəsin həzm sistemi fərqli olduğu üçün çipsilərin mədə narahatlığına səbəb olma dərəcəsi insandan insana dəyişə bilər. Bəzi insanlar çipsiləri asanlıqla istehlak edə bilsələr də, bəziləri mədə problemləri ilə üzləşə bilər. Həzm sisteminin sağlamlığını qorumaq üçün balanslaşdırılmış pəhriz yemək, təzə və təbii qidalar seçmək, işlənmiş qəlyanaltıları məhdudlaşdırmaq vacibdir.

***Lalə Mehralı***

SON SƏHİFƏ
SƏS
3 noyabr
2023-cü il

# Aliment pullarının artması boşanmaları çoxaldacaq?



## SOSİOLOQ AYDINLIQ GƏTİRDİ

***"Ölkədəki minimum əməkhaqqı nəzərə alınarsa 235 manatlıq aliment məbləği çox yüksəkdir. Boşanan şəxslərin əksəriyyəti maddi çətinlik yaşayan insanlardır". Bu sözləri SİA-ya açıqlamasında sosioloq Fatimə Hacıbəyli deyib.***

Sosioloq sözlərinə belə davam edib: "Belə halda deyək ki, ortalama iki uşaq kimi götürüləndə, aliment məbləğini ödəmək çətinlik yaradır. Hazırda da icra şöbələrində əsas icra edilməyən öhdəliklər arasında aliment öhdəliyi var. Aliment məbləğinin artması istər-istəməz boşanmaların sayının çoxalmasına da təsir edəcək. Bəzi şəxslər məbləğin yüksək olmasını düşünüb boş yerə ailəsini dağıdacaq. Fikirləşir ki, neyniirəm kişi, qayınana, qayınata əziyyəti çəkim. Ondansa boşanıb ayda 235 manatını alıb rahat yaşayar.

Uşaq sayı 2 və ya daha çox olarsa aliment məbləği daha da yüksək olur. Aliment məbləği az olarsa boşanan ailələrin sayı elə də çox olmaz. Bu səbəbdən də hesab edirem ki, aliment məbləği artırılan zaman boşanmaların artmasını da nəzərə alsınlar".

*Ayşən Vəli*

## "Qalatasaray" Okan Burukun məvacibini 50 milyona qaldırdı!



"Qalatasaray"la yeni 1 illik müqavilə imzalayan Okan Burukun maaşının məbləği bəlli olub. SİA xəbər verir ki, bu barədə "Milliyyət" qəzeti məlumat yayıb. Bildirilib ki, ötən mövsüm bir mövsümə 20 milyon lirə (bugünkü məzənnəyə uyğun olaraq 665 min avro) qazanan baş məşqçinin maaşı 150 faiz artırılıb. Onun yeni müqavilədə bir mövsüm üçün maaşı 50 milyon lirə (1 milyon 663 min avro) təyin edilib. Bundan başqa, onun üçün bonuslar da nəzərdə tutulub.

Qeyd edək ki, 2022-ci ildə "Qalatasaray"ın baş məşqçisi təyin edilən Okan Buruk elə ilk mövsümdə komandasıyla Türkiyə çempionu olub.

## Bakıda tikinti şirkətindən 20 min manatlıq oğurluq olub

***Nərimanov rayonu ərazisindəki tikinti şirkətlərinin birindən cari ilin iyul-oktyabr ayları ərzində 20.000 manat dəyərində armaturun oğurlanması barədə polisə məlumat daxil olub.***

Daxili İşlər Nazirliyindən SİA-ya verilən xəbərə görə, Nərimanov RPİ 17-ci Polis Şöbəsi əməkdaşlarının keçirdikləri əməliyyat tədbiri nəticəsində oğurluq əməlində şübhəli bilinən paytaxt sakini N.Bayramov, E.Neymətov, əvvəllər soyğunçuluq və narkotiklərlə əlaqəli cinayətlərə görə məhkum olunmuşlar E.Nəcəfov və S.Məmmədov müəyyən olunaraq saxlanılıblar.

Araşdırma aparılır.




## "SƏS" qəzetinə abunə kampaniyası davam edir!



«SƏS» QƏZETİNƏ ABUNƏ OLMAQ İSTƏYƏNLƏR AŞAĞIDAKI YAYIM ŞİRKƏTLƏRİ İLƏ ƏLAQƏ SAXLAYA BİLƏRLƏR

1. Azərpoçt Poçtdaşıma Mərkəzi – 0125984955, 0552004544
2. Azərmətbuat Yayım MMC – 0124411991, 0124404694
3. Səma Mətbuat Yayım – 0125940252, 0503336969
4. Pressainform MMC – 0125115191, 0504560835, 0553156002
5. Qaya Mətbuat yayım – 0125667780, 0502352343
6. Qasid Mətbuat Yayım – 0124931406, 0124938343
7. F.Ş.Ruhid Hüseynov – 0124349301, 0505357898
8. Ziya LTD – 0124977696, 0503067744

1 nüsxə 1 aylığı 13.20 AZN
6 aylıq 79.20 AZN
1 illik 158.40 AZN

ABUNƏÇİLƏRİMİZİN XİDMƏTİNDƏYİK
Müraciət, şikayət, yazı, təbrik və başsağlıqlarınızı dərc etməyə hazırıq!


## "Bu gün azyaşlı qız qətlə yetirilirsə,..."

"Təəssüfedici haldır ki, namus-qeyrət və s. bu kimi bəhanələrlə son illərdə öz həyat yoldaşı, ana və bacısını, hətta gəlinini bıçaqlayan, başını kəsən, qətlə yetirən, yandıran şəxslərin sayı həddindən artıq artıb. Hansısa səbəbə görə Azərbaycan cəmiyyətində hələ də namus və qeyrət ifadələri yalnız qadınlara şamil olunur. Kişilər isə özündə heç bir günah görmür. Bu isə cəmiyyətdə, xüsusilə də yeni nəsil nümayəndələri arasında savadsızlığa gətirib, çıxarır". Bu sözləri SİA-ya açıqlamasında Yeni Yazarlar və Sənətçilər İctimai Birliyinin sədri, Prezident təqaüdcüsü, yazıçı-kulturoloq Aydın Xan Əbilov deyib.

Onun sözlərinə görə, bəzi mental dəyərlərin arxasında yatan əsl həqiqətləri və onun tarixini bilmədən gündəlik həyatlarında bəzilərinin bunlardan istifadə etməsi cinayətlərə səbəb olur: "Bir şəxsin qətlə yetirilməsi onlarla dövlət orqanı, yüzlərlə məhkəmə, hüquq-mühafizə orqanları və xəstəxanaların bu hadisəyə cəlb edilməsi və cinayət faktında iştirak edən hər iki tərəfin ailə və qohum-əqrabasının ciddi psixoloji sarsıntı keçirməsinə səbəb olur. İstər-istəməz fərdlərdə yaranan bu psixoloji sarsıntı cəmiyyətin özündə də gərginlik yaradır.

Statistikaya nəzər yetirdikdə, dəhşətli qadın ölümlərinin şahidi oluruq. Bunun qarşısının alınması üçün müəyyən zamana ehtiyac var. Bu cür cinayət halları bütün cəmiyyətlərdə baş verir. Hələ biz gizlədilən ailədaxili münaqişə və basqılar, az qala ölüm qədər dəhşətli olan təzyiqləri nəzərə almırıq və yalnız gün ərzində 5-6 qətl faktının şahidi oluruq. Dəfələrlə bununla bağlı dövlət orqanları müşavirələr keçirib, müəyyən əməliyyatlar aparılıb. Eyni zamanda cəmiyyətin ziyalıları bu məsələ ətrafından maarifləndirmə işləri aparırlar. Amma bu cür qətl hadisələri azalmır ki, azalmır. Baş verən qətl hadisələrinin bir çoxunda tərəflərin erkən yaşda nikaha girməyə məcbur edilməsi də vacib faktdır".

Kulturoloq bildirib ki, qadın qətllərinin qarşısının alınması ilə bağlı maarifləndirmə işləri gücləndirilməli, ömürlük həbs cəzası tətbiq edilməlidir: "Eyni zamanda məlumdur ki, ölkəmizdə qanunla ölüm hökmü ləğv edilib. Lakin azyaşlı qızı zorlayıb, sonra isə qətlə yetirən şəxslər polisə müqavimət



KULTUROLOQ MÜNASİBƏT BİLDİRDİ

göstərən kimi, polis onu aradan qaldırmalıdır. Ümummiyyətlə hakimlər bu cür məsələlərdə qərar verərkən olduqca sərt olmalı və unutmamalıdırlar ki, bu gün bir azyaşlı qız qətlə yetirilibsə, sabahkı hədəf bizim ailəmizdən biri ola bilər".

*Səbinə Hüseynli*

Baş redaktor:
Bəhruz Quliyev

Ünvanımız:
Bakı şəhəri,
Üzeyir Hacıbəyov küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.
QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR
Tel: 598-33-90
Faks: 493-11-62

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur

Tiraj: 4000